# GÜRCÜSTAN

Qəzet 1921-ci ildən nəşr olunur
გაზეთი 1921 წლიდან იბეჭდება

"საქართველო"
"SAKARTVELO"

Qəzetimiz milli sərvətimizdir
ჩვენი გაზეთი ეროვნული სიმდიდრეა

SAYI 49-50 (13.419)
CÜMƏ 27 İYUN 2025-ci il

İctimai-siyasi həftəlik qəzet // საზოგადოებრივ-პოლიტიკური კვირეული გაზეთი

E-mail: Gurcustan_1921@mail.ru www.gurcustan.com E-mail: gurcustan2023@gmail.com


## K. KALADZE: "ELƏ PRAQMATİK SİYASƏT APARMALIYIQ Kİ, BÖYÜK DÖVLƏTLƏRİN OYUNLARI ÖLKƏMİZİN MARAQLARINA ZƏRƏR VURMASIN"



***Gürcüstan və Ukraynanın NATO-ya üzvlüyünün mümkün olmadığı barədə bəyanatlar eşidirik.***

Bu barədə "Gürcü Arzusu"nun baş katibi Kaxa Kaladze bildirib.

O, əlavə edib ki, böyük dövlətlərin maraqları var və buna görə də Gürcüstan öz milli maraqlarını qorumaq üçün düzgün və praqmatik siyasət aparmalıdır.

K. Kaladze vurğulayıb ki, Gürcüstanın NATO-ya inteqrasiya kursu hələ də hökumətin gündəliyindədir, lakin alyans bu məsələyə artıq fərqli yanaşır. Gürcüstan beynəlxalq hərbi missiyalarda fəal iştirak edən və etibarlı tərəfdaş olduğunu sübut edən ölkələrdəndir.

*"Gürcüstan hökuməti bu illər ərzində NATO ilə əməkdaşlıq istiqamətində hər şeyi edib, edir və gələcəkdə də edəcək. Biz NATO-nun üzvü olmadan da beynəlxalq hərbi missiyalarda ən çox iştirak edən ölkələrdən biri olmuşuq. Biz sözlə deyil, əməllə sübut etmişik ki, Gürcüstan etibarlı tərəfdaşdır"*, – deyə K. Kaladze bildirib.

## D. TRAMP AÇIQLADI: "İRAN VƏ İSRAİL ARASINDA ATƏŞKƏS ƏLDƏ OLUNDU"



***İran və İsrail arasında atəşkəslə bağlı razılıq əldə olunub.*** Bu barədə ABŞ prezidenti Donald Tramp sosial media hesabında yazıb. O qeyd edib ki, atəşkəs 12 saat davam edəcək. *"Hamını təbrik edirəm! İsrail və İran arasında tam və ümumi şəkildə razılaşdırılıb ki, təxminən 6 saat sonra, hər iki tərəf hazırda davam edən son missiyalarını başa çatdırdıqdan sonra tam və qəti atəşkəs elan ediləcək. Bu atəşkəs 12 saat davam edəcək və bu müddətin sonunda müharibə rəsmi olaraq bitmiş hesab olunacaq! Rəsmi olaraq İran atəşkəsi başlayacaq və 12-ci saatda İsrail də atəşkəsə başlayacaq. 24-cü saat tamam olanda isə, 12 günlük müharibənin rəsmi sonu bütün dünya tərəfindən alqışlanacaq"*, - deyə Tramp qeyd edib.

## VAĞZAL BAZARINDA YANĞINDAN ZƏRƏRÇƏKƏNLƏRƏ 1 MİLYON 687 MİN LARİ YARDIM EDİLƏCƏK

***Tbilisi şəhər meriyası Vağzal yaxınlığında yerləşən bazarda baş verən yanğın nəticəsində zərər çəkmiş vətəndaşlara birdəfəlik maliyyə yardımı göstərəcək.***

Bu barədə Tbilisi meri Kaxa Kaladze şəhər hökumətinin iclasında məlumat verib.

Onun sözlərinə görə, yardımın ümumi məbləği 1 687 000 lari təşkil edir:

*"Hamınız xatırlayırsınız, Vağzal ərazisində yerləşən bazarda baş vermiş yanğın böyük ziyan vurdu. Bizim əməkdaşlarımız bir neçə dəfə zərərçəkmişlərlə görüşdülər, aidiyyəti qurumlarımız əraziyə baş çəkdilər. Onların müraciəti əsasında dərhal ərazi təmizlənib səliqəyə salındı; hazırda söküntü işləri aparılır ki, bu insanlar tezliklə fəaliyyətlərini bərpa edə bilsinlər,"* – deyə Kaladze bildirib.

Merin sözlərinə görə, zərərin ödənilməsi ilə bağlı bir sıra görüşlər keçirilib və hökumət tərəfindən zərərçəkmişlərə birdəfəlik yardım göstərilməsi qərara alınıb. Kaxa Kaladze, həmçinin, Baş nazir İrakli Kobaxidzeyə zərərçəkmişlərə göstərilən dəstəyə görə təşəkkür edib.

## GÜRCÜSTAN ƏHALİSİNİN SAYI NEÇƏ NƏFƏRDİR?




***Gürcüstanda 2024-cü il üzrə əhalinin siyahıyaalınmasının ilkin nəticələri elan olunub.***

Ölkənin Milli Statistika İdarəsi – "Geostat"ın məlumatına əsasən, 2024-cü il noyabrın 14-nə olan vəziyyətə görə, ölkə əhalisinin sayı 3 milyon 914 min nəfər təşkil edib. Əhalinin 2 milyon 78 min nəfəri (təxminən 53%) qadınlar, 1 milyon 836 min nəfəri (47%) isə kişilərdir. "Geostat"ın açıqlamasına görə, əhalinin 62 faizi (2 milyon 423 min nəfər) şəhərlərdə, 38 faizi (1 milyon 491 min nəfər) isə kənd yerlərində yaşayır.

Regionlar üzrə Tbilisi istisna olmaqla, şəhər tipli yaşayış məntəqələrində ən yüksək pay Acarıstana aiddir (66%).

Əhalinin şəhərdə yaşama göstəricisi Mtsxeta-Mtianetidə 20%, Kaxetidə 21%, Raça-Leçxumi və Kvemo Svanetidə isə 24% təşkil edir. Siyahıyaalmanın nəticələrinə görə, Tbilisidə Gürcüstan əhalisinin 34%-i yaşayır. Əhalinin sayına görə ikinci yerdə İmereti (12,9%), üçüncü yerdə isə Kvemo Kartli (11,2%) qərarlaşıb.

## PREZİDENT 37 MƏHKUMU ƏFV EDİB



***Gürcüstan Prezidenti Mixeil Kavelaşvili 37 nəfər məhkumu əfv edib.***

Bu barədə Prezident administrasiyası məlumat yayıb.

Əfv fərmanı həbsxanadan kənarda cəza çəkən 29, həbsxanalarda isə beş nəfərə şamil edilib, üç nəfərin məhkumluğu ləğv edilib.

## MALİYYƏ NAZİRLİYİNİN İSTİNTAQ XİDMƏTİNƏ YENİ RƏHBƏR TƏYİN OLUNUB



***Mixeil Mağlakelidze Maliyyə Nazirliyinin İstintaq Xidmətinin rəhbəri vəzifəsinə təyin edilib.*** Bu barədə Maliyyə Nazirliyi məlumat yayıb.

Bildirilir ki, 2019-cu ildən bəri Daxili İşlər Nazirliyinin Müdafiə Polisinin Departamentində sədr müavini vəzifəsində çalışan Mağlakelidze, bundan əvvəl Tbilisi Bələdiyyəsinin bələdiyyə müfəttişliyində, Daxili İşlər Nazirliyi və Maliyyə Nazirliyinin müxtəlif struktur bölmələrində çalışıb. O, həmçinin Maliyyə Nazirliyinin Maliyyə Polisi İstintaq Departamentinin Aşağı Kartli İdarəsinin rəhbəri və Gəlirlər Xidmətinin Acarıstan İdarəsinin rəhbər müavini olub. Qeyd olunub ki, təyinat Baş nazirin 2025-ci il 24 iyun tarixli sərəncamı ilə həyata keçirilib.

## MARİAM KVRİVİŞVİLİ İQTİSADİYYAT NAZİRİ TƏYİN EDİLİB



***Gürcüstanın iqtisadiyyat və davamlı inkişaf naziri vəzifəsini Mariam Kvrivişvili yerinə yetirəcək.***

Bu barədə Gürcüstanın Baş naziri İrakli Kobaxidze keçirdiyi brifinqdə məlumat verib.

Hökumət başçısının sözlərinə görə, Mariam Kvrivişvili indiyədək iqtisadiyyat nazirinin müavini vəzifəsində çalışıb və burada turizm və aviasiya kimi sahələrə böyük uğurla rəhbərlik edib.

*"Gürcüstanın iqtisadiyyat və davamlı inkişaf naziri vəzifəsini Mariam Kvrivişvili tutacaq. Onu hər kəs tanıyır, ona görə də xüsusi təqdimata ehtiyac yoxdur. Bildiyiniz kimi, Mariam Kvrivişvili hakim partiyanın Siyasi Şurasının üzvüdür. İndiyədək o, iqtisadiyyat nazirinin müavini kimi fəaliyyət göstərirdi və turizm və aviasiya sahələrində böyük uğur əldə etmişdi. Bu gündən onun fəaliyyət dairəsi daha da genişlənir və əminəm ki, nazir vəzifəsində də o, indiyə qədər olduğu kimi uğurlu olacaq. Mariam Kvrivişviliyə bu vəzifədə uğurlar arzu edirəm,"* – deyə İrakli Kobaxidze bildirib.

## GÜRCÜSTANDA ATTESTAT ÜÇÜN SƏNƏD QƏBULU BU TARİXDƏN BAŞLAYIB




***Gürcüstanın Ədliyyə Nazirliyi yanında Dövlət Xidmətlərinin İnkişafı Agentliyi 23 iyun 2025-ci il tarixindən etibarən ümumi orta təhsili (XII sinfi) başa vurmağı təsdiqləyən dövlət sənədi – attestatın verilməsi üçün ərizələrin qəbuluna başlayıb.***

Bu barədə Ədliyyə Nazirliyi məlumat yayıb.

Məlumata əsasən, attestat almaq üçün ərizə Dövlət Xidmətlərinin İnkişafı Agentliyinin ərazi şöbələrinə, Ədliyyə Evlərinin filiallarına və mobil Ədliyyə Evlərinə təqdim oluna bilər.

Attestat almaq üçün ərizəni şəxsiyyət vəsiqəsi olan məzun, onun qanuni nümayəndəsi (etibarnamə əsasında), yaxud 18 yaşına çatmamış şəxslər üçün valideyni təqdim edə bilər.

Dekabrın 31-dək attestat müraciətin qəbulundan 10 iş günü sonra ödənişsiz təqdim olunacaq.

Attestat aldıqdan sonra vətəndaş eyni sənədin elektron versiyasını da istənilən vaxt **my.gov.ge** portalından yükləyə bilər. Elektron attestat orijinal sənədlə bərabər hüquqi qüvvəyə malikdir. Yükləmə üçün müraciət zamanı təqdim olunmuş yaddaş kartında göstərilən ərizə nömrəsi və kod istifadə olunur.

Baza (IX sinif) təhsili haqqında attestata gəlincə, "Ümumi təhsil haqqında" qanuna edilən dəyişikliklərə əsasən, ilkin baza təhsili attestatı yalnız 2025-ci ilin mart ayında eksternat formasında bu səviyyəni başa vuran və attestat alma hüququ qazanan şəxslərə təqdim olunacaq.

# YENİ QANUN: İŞƏGÖTÜRMƏ VƏ YAŞAYIŞ İCAZƏLƏRİ ÜZRƏ QAYDALAR DƏYİŞƏCƏK

***Gürcüstan Parlamentində miqrasiya ilə bağlı qanunvericilikdə dəyişikliklər qəbul olunacaq.***

Bu barədə hakim "Gürcü Arzusu" partiyasının icraçı katibi Mamuka Mdinaradze məlumat verib.

Onun sözlərinə görə, əsas dəyişikliklər üç istiqaməti əhatə edəcək: ölkədə qeyri-qanuni yaşayan şəxslərin ölkədən çıxarılması, əcnəbilərin işə qəbul qaydalarının sərtləşdirilməsi və investisiya əsasında yaşayış icazəsi üçün tələblərin artırılması.



M. Mdinaradze bildirib ki, bu həftə üçüncü oxunuşda qəbul ediləcək qanun layihəsinə əsasən, ölkədə qeyri - qanuni yaşayan əcnəbilərin Gürcüstandan çıxarılması proseduru sadələşdiriləcək.

Yeni qanunvericiliklə əcnəbilərin Gürcüstanda işə qəbul qaydaları sərtləşdiriləcək. Əgər indiyədək işə qəbul üçün heç bir icazə tələb olunmurdusa, yeni qaydalara əsasən, əcnəbilərə iş icazəsi yalnız Səhiyyə Nazirliyinin ciddi meyarlar əsasında verdiyi razılıqla mümkün olacaq. Nazirlik işçi tələb olunan peşələrin vəziyyətini qiymətləndirəcək və yalnız müəyyən çatışmazlıq olan sahələr üzrə icazə verəcək. Qanun həmçinin işəgötürənlərə də cərimə tətbiq etməyi nəzərdə tutur – əgər əcnəbi qanunsuz olaraq işə qəbul olunarsa, məsuliyyət həmçinin işəgötürənin üzərində olacaq.

M. Mdinaradze qeyd edib ki, hazırkı qanuna görə, əcnəbilər Gürcüstanda 100 min ABŞ dollarından artıq dəyərdə daşınmaz əmlak alarsa, onlara bir illik yaşayış icazəsi verilir. Lakin dəyişiklikdən sonra bu məbləğ 150 min dollara qədər artırılacaq. Onun sözlərinə görə, son 6 ildə belə icazəni 16 min nəfər əldə etsə də, hazırda yalnız 3 600 nəfər bu hüquqa malikdir.

Mdinaradze əlavə edib ki, bu dəyişikliklər Gürcüstan vətəndaşları üçün iş imkanlarının artırılmasına, əmək bazarının real vəziyyətinin dəyərləndirilməsinə və dövlətin təlim siyasətinin daha dəqiq planlaşdırılmasına xidmət edəcək.

# MƏHƏRRƏM AYI İLƏ BAĞLI MÜRACİƏT



***Gürcüstan Müsəlmanları İdarəsinin (BGMİ) şeyxi Hacı Faiq Nəbiyev Hicri-qəməri təqvimi ilə iyunun 27-də Məhərrəm ayının başlanması ilə bağlı müraciət edib.***

Şeyxin müraciətində deyilir: "Allahın salamı olsun bütün müsəlmanlara. Bildiyimiz kimi Məhərrəm ayına qədəm qoyuruq. Məhərrəm ayı İslam tarixində mühüm yer tutur. Bu ayın onuncu günü – Aşura günü Rəsulullahın (s) sevimli nəvəsi, cənnət gənclərinin rəhbəri, mərdliyin və ədalətin simvolu olan İmam Hüseyn (ə) Kərbəla çölündə şəhid olmuşdur. Bu hadisə təkcə bir məzhəbin deyil, bütün ümmətin dərdi və tarixidir. İmam Hüseynin şəhid olması ilə İslam ümməti böyük bir sınaqdan keçmiş, bu faciə həm tarixə, həm də ürəklərə iz salmışdır. Bu bir məzhəbə aid olan matəm deyil, bu bütün ümmətin matəmidir, ümmət bu günlər Peyğəmbərin (ə) nəvəsi Həzrət Hüseyni (ə) yad etdiyi günlərdir.

Bununla bağlı bu hədisi diqqətinizə çatdırmaq istəyirəm:

Yalə ibn Murra nəql edir: Allahın Rəsulu (s) belə buyurub: "Hüseyn (ə) məndən və mən də Hüseyndənəm. Allah Hüseyni (ə) sevəni sevsin. "Sünən Tirmizi", 5/658, hədis 3775

Qeyd etmək istəyirəm ki, Gürcüstanın bir çox məscidlərində İmam Hüseyn (ə) və səhabələri üçün matəm mərasimləri təşkil olunacaq, ehsanlar veriləcək və İslam Peyğəmbərinin əziz nəvəsi və onunla birlikdə şəhid olanları yad edəcəyik.

Məhərrəm məclislərində matəm və ağlamaq Əhlibeytə olunan zülmə etiraz, onları dost, yaxın bilərək onlara olunan zülmə narahatlığın ifadəsidir.

Əziz və hörmətli ilahiyyatçılar, təbliğatçılar, məddahlar və bu məclislərdə xidmət edən qardaş və bacılar! Bu günlərdə bizlər ixlasla İmam Hüseyni (ə), onun qiyam etmə səbəbləri, Hüseyn matəminin fəlsəfəsini məclis iştirakçılarına çatdırmaqda mükəlləfik. İlahiyyatçı və təbliğatçılar olaraq dəqiq mənbələr və mötəbər kitablarla bu barədə məlumat verməli; İmam Hüseynin (ə) fəzilətləri, onun Kərbəla qiyamının hədəfləri, ağlamağın fəlsəfəsi haqda anlaşılan dillə çatdırmalıyıq. Hörmətli məddahlar yalan olmayan mərsiyə və mətləblərə işarə etməli, insanlarda bu mərasimə məhəbbət yaratmağı bacarmalıdır. Bu mərasimlərin gözünün nuru olan – məclislərin xidmətçiləri isə ən yüksək səbr və nəvazişlə İmam Hüseyn (ə) matəminə gələnlərə xidmət göstərməlidirlər. Əhli - beyt mərasimləri üçün ehsan edən əzizləri də unutmaq olmaz. Onlara bu ehsanın savabları haqqında məlumat vermək lazımdır. Bu cür etsək, onda bu mərasimlər, bu ayda olunan xidmətlər, əziyyətlər Allahın iznilə qəbul olar, təsiri isə qəlblərdə yaxşı mənada uzun illər qalar.

Əziz müsəlman bacı və qardaşlarım!

Bu günlərdə xüsusilə axşam keçirilən məclislərə getməyinizi tövsiyə edərdik. Çünki Əhli-beyt İmamları bu mərasimləri "cənnət"ə oxşadırlar. Bu mərasimlərə ixlasla gələrək İmam Hüseynin (ə) matəmində iştirak etmək dünya və axirət səadəti üçün bir açar ola bilər. Bu mərasimlərdə dualar da qəbul olur. Əlbəttə ki, bunlardan ən vacib məqam isə İslam Peyğəmbərinin (ə) hüznlü günündə onunla hüznlü olduğumuzu göstəririk.

Son olaraq əziz qardaş və bacılarımıza bu ayda küsülüləri barışdırmanızı, valideyn və böyüklərinizi razı salmağınızı tövsiyə edirəm. Çünki bu ayda bu əməllərin də dəyəri böyükdür. Allah - Təala bu ayın fəzilət və savabına hamımızı nail etsin!".

Qeyd edək ki, hicri-qəməri təqvimi ilə 1446-ci il başa çatır, yeni 1447-ci ilin başlanğıcı – Məhərrəm ayının 1-i iyunun 27-nə təsadüf edir. Məhərrəm ayının 10-u, yəni Aşura günü isə iyulun 6-na düşəcək.

# GÜRCÜSTANDA MƏHKƏMƏ BİNASINDA ÇƏKİLİŞLƏRƏ MƏHDUDİYYƏT QOYULACAQ

***Parlamentə təqdim olunmuş yeni qanun layihəsinə əsasən, Gürcüstanda məhkəmə binasında, məhkəmə iclas zalında və məhkəmə həyətində media tərəfindən foto və video çəkilişlər, eləcə də canlı yayımlar qadağan ediləcək.***



Layihəyə görə, çəkiliş aparmaq hüququ yalnız məhkəməyə və ya onun tərəfindən səlahiyyət verilmiş şəxsə veriləcək.

Yeni dəyişikliklər "Ümumi məhkəmələr haqqında" qanuna düzəlişləri nəzərdə tutur. Layihədə o da qeyd olunur ki, məhkəmə onun sərəncamında olan məhkəmə prosesi ilə bağlı foto, kino və video çəkiliş materiallarını yalnız qanunla ziddiyyət təşkil etmədiyi hallarda yayımlaya bilər.

Bundan əlavə, məhkəmə iclaslarının video və audio yazısı yalnız əsaslandırılmış vəsatət əsasında, hakim tərəfindən qəbul edilmiş motivasiyalı qərarla mümkün olacaq.

# GÜRCÜSTANDA MÜXALİFƏT LİDERLƏRİ HƏBS EDİLİB

***Gürcüstanda müxalifət liderləri – Zurab Qirçi Caparidze, Mamuka Xazaradze, Badri Caparidze 23 iyunda və Qiorqi Vaşadze 24 iyun tarixində qanun pozuntusuna yol verdikləri üçün Tbilisi Şəhər Məhkəməsinin qərarı ilə azadlıqdan məhrum ediliblər.***

Tbilisi Şəhər Məhkəməsi Parlamentin İstintaq Komissiyasının çağırışına etinasız yanaşdıqları üçün 23 iyun tarixində "Dəyişiklik Koalisiyası"nın liderlərindən biri, "Qirçi" partiyasının sədri Zurab Caparidzenin 7 ay müddətinə, "Lelo Gürcüstan naminə" partiyasının sədri Mamuka Xazaradzenin və həmin partiyanın baş katibi Badri Caparidzenin 8 ay müddətinə, eləcə də 24 iyun tarixində "Strategiya Ağmaşenebeli"nin sədri Qiorqi Vaşadzenin 7 ay müddətinə azadlıqdan məhrum edilmələri haqqda qərar çıxarıb.

Məhkəmənin qərarına əsasən, eyni zamanda onlara iki il müddətində məsul vəzifələrdə işləmək qadağan edilib.

## Sitat guşəsi



"Artan büdcə vəsaiti infrastruktur layihələrinə, sosial proqramlara yönəldiləcək. Paytaxtda çoxlu yaxşı və əhəmiyyətli layihələr həyata keçirilir, amma hələ də ciddi çağırışlar və problemlər var və bütün bunlara layiqli cavab verilməlidir".

**Kaxa Kaladze,**
**Tbilisinin meri.**



"Hər bir lider mənəvi məsuliyyət daşıyır, müharibə fəlakətinə son qoymaq lazımdır. Müharibə problemləri həll etmir, əksinə, xalqların tarixində sağalmaz yaralar açır. Diplomatiya silahdan üstün tutulmalıdır. Gələcək yalnız sülh vasitəsilə qurula bilər".

**XIV Leo,**
**Roma Papası.**



"İranın nüvə silahı əldə etmək üçün hər şeyi var. Bunun üçün yalnız ali rəhbərin qərarı lazımdır. Bu silahı istehsal etmək üçün bir neçə həftə lazım olardı. Bu, əlbəttə ki, təkcə İsrail üçün deyil, həm də ABŞ və bütün dünya üçün ekzistensial təhdid təşkil edərdi".

**Kerolayn Livitt,**
**Ağ Evin mətbuat katibi.**



"Amerikalılar gecə İranda üç nöqtəyə zərbə endirməklə nəyə nail oldular? Nüvə sisteminin kritik infrastrukturu, görünür, zədələnməyib və ya cüzi zədələnib. Nüvə zənginləşdirilməsi və gələcəkdə nüvə silahının istehsalı davam edəcək".

**Dmitri Medvedyev,**
**Rusiya Təhlükəsizlik Şurası sədrinin müavini.**



"Hizbullah"ın lideri öz sələflərindən heç nə öyrənməyib və İsrailə qarşı fəaliyyət göstərəcəyi ilə hədələyir. Mən ona ehtiyatlı olmağı tövsiyə edirəm və başa düşməlidir ki, İsrail artıq ona qarşı yönəlmiş terror təhlükələrinə səbr etməyəcək. Əgər terror olarsa, "Hizbullah" artıq mövcud olmayacaq".

**İsrael Katz,**
**İsrailin müdafiə naziri**



"Bizim Xarici İşlər Nazirliyimiz və digər qurumlar fəal işləyirlər. Məqsədimiz bu münaqişənin mümkün qədər tez başa çatmasıdır. Bu münaqişənin İranın sərhədlərini aşmaq təhlükəsi təbii olaraq mövcuddur".

**Mahmud Adibi,**
**İran İslam Respublikasının Gürcüstandakı fövqəladə və səlahiyyətli səfiri.**

# REGİON XƏBƏRLƏRİ

## Rustavi: MERİYA VƏ ƏHALİ BİRLİKDƏ YAŞILLAŞDIRMA KAMPANİYALARI KEÇİRİR



*Şəhərin Maçabeli küçəsində yaşıllaşdırma aksiyası keçirilib.*

Meydanın yaşıllaşdırılmasında əhali ilə birlikdə Rustavi şəhərinin meri Nino Latsabidze, Rustavinin Gürcüstan parlamentindəki nümayəndəsi İrakli Şatakişvili, Şəhər Şurasının "Gürcü Arzusu" fraksiyasının üzvləri, "Rustavi servis mərkəzi"nin əməkdaşları iştirak ediblər.

Maçabeli, 6-nın həyətində istirahət yerləri, pəncərə ekranları, çöl işıqlandırması yaradılıb və dekorativ kafel, metlaxlar düzülüb.

Bu, Rustavi meriyasının əhali ilə birlikdə bu yaxınlarda keçirdiyi ikinci yaşıl aksiyadır.

Mayın 30-da Xandzteli küçəsində də birgə ekoaksiya təşkil olunmuş, yeni abadlaşdırılan ərazidə Rustavi tingliyində yetişdirilmiş 200 ağac və bitki əkilmişdir.

## Qardabani: MERİYA "ŞƏXSİ KÖMƏKÇİ XİDMƏTİ GÖSTƏRİLMƏSİ PROQRAMI"NDA İŞTİRAK ETMƏK İSTƏYƏNLƏRİN MÜRACİƏTLƏRİNİ QƏBUL ETMƏYƏ BAŞLAYIR

***Proqramın hədəfi Qardabani Bələdiyyəsində qeydiyyatda olan və burada yaşayan, əlilliyi olan, tibb müəssisəsinin qiymətləndirməsinə əsasən, fərdi köməkçi xidmətinə ehtiyacı olan şəxslərə yardım göstərməkdir.***

„პერსონალური ასისტენტის მომსახურებით უზრუნველყოფის პროგრამაში"
ჩართვის მსურველთა განცხადებების მიღება იწყება

Fərdi köməkçi xidməti – əlilliyi olan şəxsə müstəqil həyat keyfiyyətinin yaxşılaşdırılması və öz həyatına nəzarətin artırılması üçün, habelə təhsil alarkən, dövlət xidmətlərindən istifadə edərkən və ya gündəlik fəaliyyətini həyata keçirərkən müvafiq yardım göstərən xidmətdir.

Şəxsi yardım iki kateqoriyaya bölünür:

1. Fiziki, hissiyyat, yüngül və orta dərəcəli əqli qüsurları, habelə psixososial ehtiyacları olan insanlar üçün xidmətləri əhatə edən müntəzəm yardım (bir istifadəçi üçün ayda 60 saatdan çox olmayan);

2. Ağır və dərin əqli qüsurlu, ağır fiziki qüsurlu, habelə çoxsaylı əlilliyi olan insanlara xidmət göstərən ixtisaslaşdırılmış yardım (bir istifadəçi üçün ayda 120 saatdan çox olmayan).

## Bolnisi: BUBA QOBECİŞVİLİ PODRATÇI ŞİRKƏTLƏRİN RƏHBƏRLƏRİ İLƏ GÖRÜŞÜB



***İşçi iclasda bələdiyyədə həyata keçirilən və həyata keçirilməsi planlaşdırılan infrastruktur layihələri ətraflı müzakirə olunub.***

Buba Qobecişvili əsas diqqəti layihələrin vaxtında və keyfiyyətli həyata keçirilməsinin zəruriliyinə yönəldib.

Bələdiyyədə Regional Layihələr Fondunun və yerli büdcənin birgə maliyyələşdirilməsi ilə 22 infrastruktur layihə həyata keçirilir ki, bunun da əksəriyyəti yol infrastrukturunun təkmilləşdirilməsidir. Bu layihələr üçün mərkəzi və yerli büdcələrdən 7 milyon 700 min lariyə qədər vəsait ayrılıb.

İclasda Meriyanın Məkan Planlaşdırma və İnfrastruktur Xidmətinin rəhbəri Konstantin Kordzadze, Maliyyə və Büdcə Xidmətinin rəhbəri Solomon Çarkviani və Satınalmalar Departamentinin rəhbəri Qiorqi Mateşvili iştirak ediblər.

## Telavi: BƏLƏDİYYƏNİN MERİ LEVAN ANDRİAŞVİLİ "BETSSON İDMAN GÜNLƏRİ"NDƏ İŞTİRAK EDİB



***Tədbir Telavi Bələdiyyəsi meriyasının dəstəyi ilə Dövlət Universitetinə bitişik yeni təchiz olunmuş çoxfunksiyalı idman meydançasında keçirilib.***

Gün ərzində əraziyə gələn qonaqlar müxtəlif əyləncə məkanları, iaşə guşəsi, maarifləndirici tədbirlər və idman avtomobillərinin sərgisi ilə tanış olublar. Tədbirdə Gürcüstanın məşhur "Youtube-people"də iştirak edib. İdman tədbirlərinin qaliblərinə simvolik hədiyyələr təqdim olunub.

# BEYNƏLXALQ HƏYAT

## ABŞ-NİN İRANA ETDİYİ HÜCUMUN YENİ TƏFƏRRÜATLARI: HÜCUM ZAMANI ABBAS ƏRAQÇİYƏ MƏKTUB GÖNDƏRİLİB



***ABŞ prezidenti Donald Tramp iyunun 21-də Bedminsterdəki qolf klubunda olarkən İranın nüvə obyektlərinə zərbə endirmə əməliyyatına yekun razılıq verib.***

Bu barədə öz mənbələrinə istinadən "Axios" portalı məlumat yayıb.

Hücumun baş verə bilməyəcəyi ilə bağlı açıq bəyanatlara baxmayaraq, Amerika lideri iyunun 20-də müdafiə naziri Pit Heqsete ABŞ-dən "B-2" strateji bombardmançılarını əməliyyata göndərməyi əmr edib.

Bir neçə saat sonra təyyarələr Missuri ştatındakı hava bazasından havaya qalxıb, bəziləri isə diqqəti yayındırmaq üçün saxta hədəflərə doğru gediblər. Bir qolf klubunda Amerika liderinə məlumat verilib ki, bombardmançılar geri dönüş nöqtəsi deyilən nöqtəyə - tam radio səssizliyinə keçəcəkləri ana çatmaq üzrədirlər. Prezident də İranın nüvə obyektlərinə zərbələr endirmək üçün son icazə verib.

Tramp qısa müddət sonra Vaşinqtona qayıdıb. Ağ Evdə onun milli təhlükəsizlik komandası əməliyyatla bağlı məlumatlandırılıb. Zərbə anında ABŞ liderinin xüsusi nümayəndəsi Stiven Uitkoff İranın xarici işlər naziri Abbas Əraqçiyə mesaj göndərərək əməliyyatın birdəfəlik olduğunu və yalnız Tehranın nüvə proqramı ilə məhdudlaşdığını açıq şəkildə bildirib.

Stiven Uitkoff əlavə edib ki, Birləşmiş Ştatlar hələ də diplomatik həll yolu axtarır və indi İranın uranın zənginləşdirilməsi üzrə əsas obyektlərini məhv etdikdən sonra danışıqlar masasına qayıtmasını istəyir. Artıq ABŞ-nin danışıqlar aparmaq təklifinə cavab olaraq İranın xarici işlər naziri Abbas Əraqçi Moskvaya gedib və orada Rusiya prezidenti Vladimir Putinlə görüşməyi planlaşdırır.

Tramp ona məxsus sosial şəbəkə hesabında hücumlarla bağlı belə yazıb: *"Peyk görüntülərindən göründüyü kimi, İrandakı bütün nüvə obyektlərinə monumental ziyan dəyib. Məhv etmək düzgün termindir!. Ən pis zərər yer səviyyəsindən çox aşağıda verilmişdir".*

## TÜRKİYƏ HÖRMÜZ BOĞAZINA ALTERNATİV OLARAQ "ORTA DƏHLİZ"DƏ İŞLƏRİNİ GÜCLƏNDİRİR



***Türkiyə Fars körfəzi ölkələrindən neft və qaz ixracı üçün əsas nəqliyyat arteriyası olan Hörmüz boğazının mümkün bağlanması risklərini minimuma endirmək üçün quru və dəniz logistika marşrutlarını fəal şəkildə inkişaf etdirir.***

Bunu Türkiyənin nəqliyyat və infrastruktur naziri Abdulkadir Uraloğlu deyib.

*"Boğazın bağlanacağı təqdirdə etibarlı alternativlərə ehtiyacımız var, ona görə də biz "İnkişaf Yolu" və "Orta Dəhliz" layihələrini həyata keçiririk",* - deyə nazir izah edib.

Onun sözlərinə görə, "İnkişaf Yolu"nun 2,1 min km-i Türkiyə ərazisindən keçir və bura təxminən 24 milyard dollar sərmayə qoyulması planlaşdırılır. Paralel olaraq Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu ("Orta Dəhliz") gücləndirilir ki, burada da marşrutun 2,2 min km-i Türkiyədən keçir. Bu marşrutun əsas hissələrinin tikintisi artıq başa çatıb.

Layihələr tam istifadəyə verildikdən sonra yüklərin Avropaya çatdırılma müddətləri "İnkişaf Yolu" ilə 25 günə, "Orta Dəhliz" vasitəsilə isə rekord səviyyəyə - 13 günə enəcək. "Orta Dəhliz" kimi tanınan Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu Xəzər dənizindən keçməklə Çin, Qazaxıstan, Azərbaycan, Gürcüstan, Türkiyə və Avropa ölkələrini birləşdirir. 2024-cü ildə Çindən "Orta Dəhliz"lə daşınmış yüklərin həcmi 2023-cü illə müqayisədə 25 dəfədən çox artaraq 27 min konteyneri keçib.

## ABŞ-DƏN HÖRMÜZ BOĞAZI QƏRARINA SƏRT REAKSİYA: "BÖYÜK BƏDƏL ÖDƏYƏCƏK"




***İran parlamentinin Hörmüz boğazının bağlanmasını təsdiqləməsi beynəlxalq aləmdə ciddi narahatlıq doğurub.***

ABŞ dövlət katibi Marko Rubio bu addıma kəskin reaksiya verib.

O bildirib ki, boğazın bağlanması ilk növbədə Çinə ağır zərbə vura bilər.

CBS telekanalında yayımlanan "Face the Nation" proqramında çıxış edən Rubio deyib:

*"Çinin neft tədarükünün böyük hissəsi Hörmüz boğazından keçir. İran bu keçidi bağlayarsa, ilk olaraq Çin zərər çəkəcək. Bu, onların çox ağır bədəl ödəyəcəyi bir vəziyyət olacaq. Eyni zamanda, digər ölkələrə də təsir edəcək".*

İran parlamentinin Milli Təhlükəsizlik Komissiyasının üzvü Məhəmməd Kevseri isə bildirib ki, qərar parlamentdə təsdiqlənsə də, yekun söz Milli Təhlükəsizlik Ali Şurasına məxsusdur.

Qeyd edək ki, Hörmüz boğazı İran və Oman arasında yerləşir və Fars körfəzini açıq dənizlərlə birləşdirir. ABŞ Enerji İnformasiya Administrasiyasının məlumatına görə, bu boğazdan gündəlik təxminən 20 milyon barel neft nəql olunur. Bu, qlobal neft təchizatının təxminən dörddə birini təşkil edir.

Beynəlxalq Enerji Agentliyi də bu məsələyə reaksiya verərək boğazın bağlanmasının qlobal enerji bazarına ciddi təsir göstərə biləcəyini açıqlayıb. Ekspertlər bildirirlər ki, bu addım neftin qiymətini 100 dolları keçən səviyyəyə yüksəldə bilər.

## GÜRCÜSTAN MƏTBUATI NƏDƏN YAZIR?

*23 iyun 2025-ci il* **"SAKARTVELOS RESPUBLİKA"**

### Gürcüstanın cüdo komandası dünya çempionudur!

13 – 20 iyun 2025-ci ildə Macarıstanın paytaxtı Budapeştdə keçirilən cüdo üzrə dünya çempionatında Gürcüstan komandası Çini 4:1, İtaliyanı 4:0, Yaponiyanı 4:2 və Koreyanı 4:1 hesabı ilə məğlub edib. Çempionatda Gürcüstan adından gürcü cüdoçular Mariam Çanturia, Sofo Somxişvili, Eter Liparteliani, Mixeil Baxbaxaşvili, Laşa Bekauri, Quram Tuşişvili iştirak ediblər. Komandanın baş məşqçi Laşa Qujejianidir.

Hökumət nümayəndələri Gürcüstanın cüdo yığmasını dünya çempionatında qalib gəlməsi münasibətilə təbrik ediblər.

"Gürcü Arzusu" partiyasının fəxri sədri Bidzina İvanişvili idmançıları bu sözlərlə təbrik edib: "Bu tarixi uğur yorulmaz əməyin, yüksək peşəkarlığın, vətən sevgisinin nəticəsidir. Dünya çempionatında heç şeyini əsirgəməyən, ölkəmizin bayrağını ucaldan güləş üzrə yığma komandanın hər bir üzvünə təşəkkürümü bildirirəm.

Bu qələbəni fərqləndirən odur ki, gürcü kişi və qadın cüdoçular indiyədək heç vaxt birlikdə dünya çempionu olmayıblar. Bir daha milli komandanı və bütün Gürcüstanı bu tarixi qələbə münasibətilə təbrik edirəm!"

*24 iyun 2025-ci il* **"KVİRİS PALİTRA"**

### Britaniya kəşfiyyatının rəhbəri Bleiz Metrevelinin gürcü kökləri

Böyük Britaniyanın Xarici Kəşfiyyat Xidmətinin (MI6-nın) yeni rəhbəri gürcü əsilli Bleiz Metrevelidir.

Bleiz Metreveli Kembric Universitetinin antropologiya fakültəsini bitirib. Universitetdən məzun olduqdan sonra Böyük Britaniyanın Gizli Kəşfiyyat Xidmətində çalışarkən, əks-kəşfiyyatın direktoru vəzifəsinə təyin edilib.

Maraqlıdır ki, Metrevelinin sözlərinə görə, onun əcdadı İngiltərəyə Almaniyadan gəlib. Bleizin bioqrafiyasında ailə üzvlərindən adı çəkilən yeganə şəxs atası, həkim Konstantin Metrevelidir. Son zamanlar Konstantin Metrevelinin nənəsi Qisela ilə bağlı məlumatlar üzə çıxıb. Qisela gürcü mühacir Arçil Metreveli ilə evlənib və 110 yaşına qədər yaşayıb; Qiselanın rəsmi bioqrafiyasına və öz sözlərinə görə, onu Gürcüstanda gəlin kimi qəbul etməyiblər.

Lakin Gürcüstanın sovetləşməsindən sonra Arçil Metreveli Almaniyada, Berlində həmişəlik qalanda bunu tale özü həll edib. Burada cütlüyün iki övladı olub. Onlardan Elene 28 yaşında vəfat edib. O, alman, fransız və italyan dillərini mükəmməl bilib.

Amerikanın "Weconstek" saytının yazdığı kimi, Bleiz özü də bir neçə dildə sərbəst danışır. 1942-45-ci illərdə Almaniyada Arçil Metreveli "Vermaxt"ın (Alman silahlı qüvvələri) tərəfində döyüşən gürcü legionunun həyatı ilə tanış edən "Gürcüstan" qəzetini nəşr etdirib. Cəmi 138 sayı buraxılıb, sonuncu nömrəsi 1945-ci il martın 12-də işıq üzü görüb. Bundan əlavə, sözügedən legionerlər üçün "Pələng dərisi geymiş pəhləvan" poemasını çap etdirən də məhz Arçil olub. Arçil almanlara əsir düşmüş bir çox gürcünü də xilas edib. Deməli, o, övladlarını da maarifləndirən böyük şəxsiyyət olub.

ЕЖЕНЕДЕЛЬНАЯ ГАЗЕТА С ПОЛНОЙ ТЕЛЕПРОГРАММОЙ
ТБИЛИССКАЯ НЕДЕЛЯ

*18-24 iyun 2025-ci il* **"TBİLİSSKAYA NEDELYA"**

### Beynəlxalq Valyuta Fondu 2025-ci ildə Gürcüstanın iqtisadi artımı ilə bağlı proqnozunu 6 faizdən 7,2 faizədək artırıb

Gürcüstanın maliyyə nazirinin müavini Qiorqi Kakauridze bildirib ki, Gürcüstan hakimiyyəti hazırda ölkənin 2025-ci il üçün iqtisadi artım proqnozuna yenidən baxmağı planlaşdırmır.

Beynəlxalq Valyuta Fondu 2025-ci ildə Gürcüstanın iqtisadi artımı ilə bağlı proqnozu 6 faizdən 7,2 faizədək yüksəldib.

"Biz 2025-ci il üçün iqtisadi artımı 6 faiz səviyyəsində planlaşdırmışıq. İlk 4 ayda büdcə planında nəzərdə tutulandan daha yüksək iqtisadi artım (8,8 faiz) əldə etmişik, lakin indiki mərhələdə proqnoza yenidən baxılmasını və yeni büdcənin planlaşdırılmasını nəzərdə tutmuruq. Cari il üçün iqtisadi artım proqnozu 6 faiz, sonrakı illərdə isə 5,2 faiz səviyyəsində qalır", - deyə Kakauridze izah edib.

Gürcüstan iqtisadiyyatı son bir neçə ildə sürətlə inkişaf edir. Ölkənin iqtisadi artımı 2021-ci ildə 10,6 faiz, 2022-ci ildə 10,4 faiz, 2023-cü ildə 7,8 faiz, 2024-cü ildə isə 9,4 faiz təşkil edib. 2025-ci ilin aprel ayında real iqtisadi artım 2024-cü ilin müvafiq dövrü ilə müqayisədə 7,5 faiz, 2025-ci ilin yanvar-aprel aylarında ÜDM-in orta artım tempi isə 8,8 faiz təşkil edib.

Beynəlxalq Valyuta Fondunun 2024-cü ilin aprel ayında etdiyi proqnoza əsasən, 2029-cu ildə adambaşına düşən real ÜDM-in onillik artım templərinə görə Gürcüstan dünyada ilk üç lider sırasına daxil olacaq, Avropada isə lider mövqeyinə sahiblənəcək. Eyni zamanda, proqnoza görə, Gürcüstan iqtisadiyyatı 10 il ərzində 68 faiz artacaq. Gürcüstanın illik orta iqtisadi artımı 5,3 faiz təşkil edəcək.

2029-cu ildə Gürcüstanın adambaşına düşən ÜDM-i 12 900 dolları keçəcək ki, bu da 2020-ci illə müqayisədə üç dəfə, 2021-ci ildəkindən isə 2,5 dəfə çoxdur.

Fondun proqnozuna görə, 2029-cu ildə Gürcüstanın adambaşına düşən nominal iqtisadi göstərici ABŞ dolları ilə 8,6 faiz artacaq.

## QƏZETİMİZİN XRONİKASI

**Beynəlxalq münasibət**

•Ukrayna prezidenti Volodimer Zelenski NATO sammitində iştirak etmək üçün Haaqaya gedib. Onun ABŞ prezidenti Donald Trampla görüşü gözlənilir.

•Haaqa sammitində Türkiyənin Ukraynadakı münaqişənin həlli ilə bağlı yeni səyləri barədə NATO ölkələrinə məlumat veriləcək. Bu barədə ölkə prezidenti Rəcəp Tayyib Ərdoğan bildirib.

•Rusiya Təhlükəsizlik Şurası katibinin müavini Aleksandr Venediktov bildirib ki, Rusiya ŞƏT-ə (Şanxay Əməkdaşlıq Təşkilatı) üzv ölkələrə Əfqanıstanla əlaqələri bərpa etməyi təklif edib.

•İran mediası xəbər verir ki, İsrail Müdafiə Qüvvələri (IDF) atəşkəs dövründə İranın şimalında iki şəhərə zərbələr endirib. İsrail mediasının məlumatına görə, hücum Tehran yaxınlığında yerləşən İran radar stansiyasını hədəf alıb.

•Donald Tramp deyib ki, İran nüvə obyektlərini bərpa edə bilməyəcək. Onun sözlərinə görə, Tehranın nüvə potensialı tükənib.

•İranın nüvə proqramı dayanmayacaq deyə, İslam Respublikasının vitse-prezidenti və İranın Atom Enerjisi Təşkilatının rəhbəri Məhəmməd Eslami bildirib.

•İranın Qətərdəki səfiri Əli Saleh Abadi Qətər Xarici İşlər Nazirliyinə çağırılıb. Qətər Xarici İşlər Nazirliyinin mətbuat xidməti bu haqda məlumat yayıb. Çağırılmaya səbəb İran ordusunun Qətərdə yerləşən Amerikanın Əl-Udeid aviabazasına endirdiyi zərbə ilə əlaqədar olub.

•İran və Qətərin xarici işlər nazirləri gecə endirilən zərbələrdən sonra telefonla danışıblar və İran "yaxşı qonşuluğa əsaslanan" əlaqələri gücləndirmək planlarını açıqlayıb.

•Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov BƏƏ-nin xarici işlər naziri Abdulla bin Zayed ilə danışıqlar aparıb. Əsas müzakirə mövzusu regional təhlükəsizlik olub. Yaxın Şərqdə baş verən son hadisələr və onların regionda sülh və sabitliyə təsiri barədə fikir mübadiləsi aparılıb.

**Diplomatiya**

•Şalva Papuaşvili Brüsselin tənqidinə cavab verib: Gürcüstana qarşı ittihamlar siyasi motivlidir.

•Gürcüstanın daxili işlər naziri Qela Qeladze Türkiyə Respublikasının Gürcüstandakı fövqəladə və səlahiyyətli səfiri Ali Kaan Orbay ilə tanışlıq görüşü keçirib.

•Lüksemburqda Gürcüstanın ilk fəxri konsulluğu açılıb.

**Daxili siyasət**

•Mixeil Kavelaşvili Baş nazir, Nazirlər Kabinetinin üzvləri və Patriarxlığın nümayəndələri ilə birlikdə Qiorqi Antsuxelidze adına Çavuşlar Akademiyasının ərazisində keçirilən tədbirdə iştirak edib.

•Gürcüstan hökuməti qarşısına korrupsiyanın ən aşağı səviyyədə olduğu üç aparıcı Avropa ölkəsindən biri olmaq kimi iddialı məqsəd qoyub. Bu haqda Gürcüstanın Baş naziri İrakli Kobaxidze bildirib.

**İqtisadiyyat**

•Gürcüstanın Maliyyə naziri Laşa Xutsişvili bu il Çinin ev sahibliyi etdiyi Asiya İnfrastruktur İnvestisiya Bankının (AIIB) 10-cu illik toplantısında iştirak edir. Görüş çərçivəsində o, Bankın prezidenti Jan Liquin ilə görüşüb.

•Gürcüstan Milli Bankı və Maliyyə Nazirliyində Beynəlxalq Valyuta Fondunun Qafqaz, Mərkəzi Asiya və Monqolustanın Potensialın Gücləndirilməsi Mərkəzinin (CCAMTAC) Rəhbər Komitəsinin iclası keçirilib.

•Tbilisidə hava limanının yaxınlığında 70 min nəfərlik yeni stadion tikiləcək.

**İdman**

•Astanada iyunun 30-dan iyulun 6-dək kişilər və qadınlar arasında boks üzrə Dünya Kuboku keçiriləcək. Azərbaycan boksçuları Qazaxıstanda Dünya Kuboku uğrunda mübarizə aparacaqlar.

**Maraqlı**

•Alimlər Antarktika buzunun altında qədim mənzərə aşkar ediblər

•Astronomlar gənc ulduzun ətrafında fırlanan qaz buludunun tərkibində spirt aşkar ediblər. HD 100453 ulduzunu əhatə edən qazlarda metanol və onun izotopları aşkar edilib.

•Google-da işləyən və neyron şəbəkələri ilə bağlı kəşflərinə görə "süni intellektin xaç atası" ləqəbini qazanan Ceffri Hinton texnologiyanın inkişafı fonunda kütləvi işsizliyin risklərindən danışıb.

## SAĞLAMLIĞIMIZI QORUYAQ

# MEYVƏ VƏ TƏRƏVƏZLƏRİN XÜSUSİYYƏTLƏRİ, İNSAN ORQANİZMİNƏ FAYDALARI VƏ ZƏRƏRLƏRİ

*(Əvvəli ötən sayımızda)*

**Banan**



Sarı və yaşıl qabıq ilə örtülmüş ağ özəkdən ibarət olan və şirin dada malik banan banankimilər fəsiləsinə aid çoxillik ot bitkisidir. Bananın 70-ə yaxın növü var. Botanika baxımından banan çoxlu toxuma malik giləmeyvədir, lakin yetişdirilən hibrid növləri vegetativ yayılma yolu ilə yetişdirildikləri üçün toxumsuzdur.

Bəşər qədim zamanlardan bu meyvə ilə tanış olub. Sözügedən meyvə haqqında ən qədim mənbə Hindistan ədəbiyyatının ən məşhur əsərlərindən biri olan "Riqvedalar"dır. Banan həmçinin hind ədəbiyyatının iki əsas əsəri olan "Mahabharata" və "Ramayana" eposlarında qeyd edilib. Belə ki, "Ramayana" eposuna aid Aranyakanda kitabında kral ailəsinin üzvlərinin banan yarpağından toxunmuş paltarlar geyindiyi qeyd edilib. Müqəddəs kitabımız Qurani-Kərimdə banan haqqında belə bir ifadə var: "Meyvələri salxım-salxım silsilə banan ağacları." (Vaqiə surəsi, 29 - cu ayə).

Banan çiy halda istehlak edilir, bu meyvədən müxtəlif qənnadı məmulatlar, şirələr və hətta sirkə hazırlanır, banan unu əldə edilir.

***Banan insan orqanizmi üçün faydalı məhsuldur.*** Sözügedən meyvənin tərkibində beta-karotin, alfa-karotin, A, C, B1, E, K, B2, B3 (PP), B4, B5, B6 və B9 vitaminləri, həmçinin kalsium, dəmir, maqnezium, fosfor, kalium, natrium, sink, mis, manqan, selen və flüor kimi minerallar var. 200 qr bananda təxminən 55 mq maqnezium var ki, bu da gündəlik tələbatın 13 faizini təşkil edir. Banan ürək əzələsinə faydalı təsir göstərir, "bəd" xolesterinin səviyyəsini azaldır, mədə-bağırsaq traktının fəaliyyətini yaxşılaşdırır. Banan əhval-ruhiyyəni yüksəldir və stressin qarşısını alır. Banan anemiya və müxtəlif növ degenerasiya üçün olduqca faydalı məhsuldur. Həmçinin meyvənin tərkibindəki kalium ateroskleroz, infarkt və insultun qarşısını alır. Adi halda banan qan laxtalanmasının qarşısını almaq və qan mikrosirkulyasiyasını stimullaşdırmaq üçün əla vasitədir.

***Amma bu meyvənin əks göstəriciləri də var.*** Varikoz damarları üçün arzuolunmaz qidalar siyahısında banan da var. Bu meyvə ürək-damar sisteminin sağlamlığını dəstəkləyən kalium və maqneziumun əla mənbəyidir. Ancaq banan qanın saflığına təsir edir və tromboflebitə səbəb ola bilər. Ürək-damar xəstəlikləri olan insanlar banandan uzaq durmalıdırlar. Bunun səbəbi odur ki, bu meyvə bədəndən mayenin çıxarılmasına kömək edir; bu da qanın qatılaşmasına və qan damarlarının mümkün tıxanmasına gətirib çıxarır ki, bu da öz növbəsində qanın laxtalanmasına səbəb ola bilər.

# DİLİMİZİ DAHA YAXŞI ÖYRƏNƏK!

*(Əvvəli ötən sayımızda)*




Qəzetimizin 2 aprel 2021-ci il tarixli 23-24 saylı buraxlışında "Hörmətli oxucular!" sərlövhəli yazının davamı olaraq Azərbaycan dilinin zənginliyini, şirinliyini duymaq, bilmək, onu təbliğ etmək və geniş oxucu kütləsini maarifləndirmək üçün gündəlik danışıq vaxtı işlədilən və az işlədilən sözlərin mənaca təhlilinin oxuculara təqdimatını davam etdiririk:

**HƏMAİL** *is. [ər.]* 1. Qılınc, tapança və s. silah asmaq üçün çiyindən aşırılan qayış; çiyin qayışı.

*Misri qılınc həmaildi belində;*
*Geyər hər vaxt al-qumaşı Koroğlu.*
"Koroğlu".

2. Boyundan asılan, üzəri piləklə bəzədilmiş qadın bəzəyi.

*"Gəlinlər həmaili"* (əsər adı).

[Leylək] *həm üzük, həm sırğa, həm həmail, həm də bilərzik almaq istədi.*
S. Rəhimov.

*Ay qız, sənə mailəm.*
*Boynunda həmailəm,*
*Dost payı şirin olar.*
*Hər nə versən qailəm.*
M. İbrahimov.

3. İnanca görə, gözdəymədən, xəstələnməkdən və s. qorunmaq üçün boyundan asılan dua, tilsim, pitik. *Arxeoloji qazıntılar zamanı çoxlu həmail aşkar edilir.*

**HƏMAVAZ** *sif.* və *zərf [fars.]* Səsləri bir-birinə uyğun; həmahəng.

■ **Həmavaz olmaq** – səs-səsə vermək.

*Gah eyləyibən sürudlər saz,*
*Bülbüllərə oldular həmavaz.*
*Füzuli. Azər uyurkən, şaqraq,*
*Bir sədа sazla həmavaz olaraq,*
*Onu qaldırdı yataqdan erkən.*
H. Cavid.

**HƏMAVAZLIQ** *is.* Səslər arasında uyğunluq, ahəng; həmahənglik.

**HƏMBAB** *sif. [fars.] dan.* Bir-birinə uyğun, münasib, bab.

// *məc.* Sevgili, məhbubə.

*Könlümün sevdiyi gözəl həmbabı,*
*Zülfləri bənd edib on dörd kitabı.*
Şair Vəli.

**HƏMCİNS** *is.* [*fars.* həm və *ər.* cins]

1. Bir cinsdən olan, cinsi bir olan; eynicinsli. *Həmcins heyvanlar.*

2. Bir cinsə, bir qövmə mənsub olan, eyni cinsdən, eyni qövmdən olan, öz cinsindən olan (məcazi mənada adətən insan, adam nəzərdə tutulur).

*Həmcinslərim təmam getmiş,*
*Söz mülkündən nizam getmiş.*
Füzuli.

◊ **Həmcins cümlə üzvü** *qram.* – cümlədə eyni sintaktik vəzifəni yerinə yetirən cümlə üzvü.

**HƏMÇƏKİ** *sif.* Çəkisi bir olan, eyni ağırlıqda, çəkidə olan

**HƏMÇİNİN** *bağl.* [*fars.*] 1. Habelə, ...da (...də), həm, həm də.

*Usta Zeynal həmçinin bir arif kişi idi. O da gözəl şeirlər oxuyardı.*
Ə. Haqverdiyev.

[Hacı Osman:] *..Dəyirmanını verdin əkinçilərə, yerlərini həmçinin, onda pəs necə dolanırsan?*
N. Vəzirov.

**HƏMD** *is. [ər.] din.* Şükür, təşəkkür, minnətdarlıq.

*İşimiz boş danışıq, həmdü sənadır,*
*deməTdim?*
*Ay baba, işlərimiz xeyli fənadır,*
*dedim?*
C. Cabbarlı.

■ **Həmd olsun** – "Allaha şükür", "Allaha şükür olsun" mənasında Allaha minnətdarlıq bildirən dini təbir.

*Həmd olsun, özünüz görürsünüz, kimlərdir şəriətini bilməyib, kor-koranə ələyaq çalanlar..*
C. Məmmədquluzadə.

**HƏMDƏM** *is. [fars.]* Yaxın yoldaş, yaxın dost, sirdaş.

*Hardasız, ey şad keçən dəmlərim,*
*Hardasız, ey sevgili həmdəmlərim?*
A. Səhhət.

**HƏMDƏMLİK** *is.* Yaxın yoldaşlıq, sirdaşlıq, yaxın dostluq, çox yaxınlıq.

*Həmdəmliyim ilə ar qılma,*
*Məndən nifrəti şüar qılma.*
Füzuli.

**HƏMDƏRD** *is. [fars.]* Dərdləri bir olan adamlardan hər biri, birilə bir dərddə olan.

[Leyla xanım:] *Həmdərdik, qardaş, qorxma, sözünü de...*
N. Vəzirov.

**HƏMDƏRS** *is. [fars.* həm və *ər.* dərs] Bir sinifdə və ya bir yerdə oxuyan.

**HƏMDİN** *is.* [*fars.* həm və *ər.* din] Eyni dinə mənsub olan adamlardan hər biri; dindaş.

**HƏMD-SƏNA** *is. [ər.] din.* Allaha səna və təşəkkür, minnətdarlıq, razılıq. [Dərviş Ruqiyyəyə:] *Bunların hamısının əvəzində Allah səni yetirdi və mən də "bəsdi" deyib ona həmdi-səna dedim.*
A. Divanbəyoğlu.

**HƏMƏQİDƏ** *sif.* və *zərf [fars.* həm və *ər.* əqidə] Eyni əqidədə olan; həmməslək.

*Rzaquluxan ilə həməqidə olan müsyö Lui də .. İran səfərinə hazırlaşmaqda idi.*
M. S. Ordubadi.

**HƏMƏL** *is. [ər.]* Ərəb astronomiyasında Qoç bürcünün adı. *Günəş həməl bürcünə yaxınlaşdığı dəqiqədə Sultan Toğrulun qapısında vurulan kərənayxana Novruz bayramı mərasiminin başlandığını xəbər verdi.*
M. S. Ordubadi.

**HƏMƏN** *[fars.]* 1. *əvəz.* Həmin, haman, o.

[Cavad bəy:] *Elə işlərin üstündə həmən adamı divara söykəyib başına güllə çaxarlar, qalar yerində..*
N. Vəzirov.

2. *zərf* O saat, dərhal, əlüstü.

*Mən bu lövhələri xəstə, nəfəssiz,*
*Seyr edərək həmən yüyürdüm səssiz.*
S. Vurğun.

**(Davamı var)**

**Hazırladı: Xaləddin Yolçuyev.**

# DÖVLƏT DİLİNİ ÖYRƏNMƏLİYİK!

***Hörmətli oxucular!***



Gürcüstanda yaşayan etnik azlıqların dövlətçiliyin əsaslarının möhkəmləndirilməsi, ölkənin ictimai-siyasi həyatında fəal iştirak etməsi, cəmiyyətə inteqrasiya olunmaqla onun tamhüquqlu vətəndaşı olması üçün gürcü dilini və tarixini bilmələri vətəndaşlıq borcudur. Dövlətin "Vətəndaş Bərabərliyi və İnteqrasiya üzrə 2021-2030-cu illər üçün dövlət strateji proqramı"na əsasən Gürcüstanda yaşayan etniklər 2030-cu ilədək gürcü dilini mənimsəməlidirlər. "Gürcüstan" qəzeti də yuxarıda qeyd olunanları nəzərə alaraq, bu mühüm işə öz töhfəsini vermək üçün gürcü dilini öyrənmək istəyənlərə yardım etmək məqsədilə yeni rubrika açıb. Bu rubrika altında siz gürcü dilinin əlifbasından başlayaraq dilin bütün özəllliklərinə bələd olacaqsınız.

## Gürcü əlifbası

**Gürcü əlifbası 33 hərfdən ibarətdir və aşağıdakı ardıcıllıqla düzülür.**

| Gürcü hərfləri | Azərb. hərfləri | Əlifba sırası ilə adı | Gürcü hərfləri | Azərb. hərfləri | Əlifba sırası ilə adı | Gürcü hərfləri | Azərb. hərfləri | Əlifba sırası ilə adı |
|---|---|---|---|---|---|---|---|---|
| ა | a | ან | მ | m | მან | ღ | ğ | ღან |
| ბ | b | ბან | ნ | n | ნარ | ყ | ğ* | ყარ |
| გ | q | გან | ო | o | ონ | შ | ş | შინ |
| დ | d | დონ | პ | p* | პარ | ჩ | ç | ჩინ |
| ე | e | ენ | ჟ | j | ჟან | ც | ≈ ts* | ცან |
| ვ | v | ვინ | რ | r | რაე | ძ | ≈ dz | ძილ |
| ზ | z | ზენ | ს | s | სან | წ | ≈ ts | წილ |
| თ | t | თან | ტ | t* | ტარ | ჭ | ≈ tç | ჭარ |
| ი | i | ინ | უ | u | უნ | ხ | x | ხან |
| კ | k* | კან | ფ | p | ფარ | ჯ | c | ჯან |
| ლ | l | ლას | ქ | k | ქან | ჰ | h | ჰაე |

**Qeyd: ≈ işarəsi "təxmini tələffüz"ü göstərir.**
*** işarəsi "sərt tələffüz"ü göstərir.**

Gürcü dili əlifbasında 5 sait : ა(a), ე(e), ი (i), (o) ო, უ (u) var, qalanı samit səslərdir. Gürcü dilində 8 spesifik xüsusiyyətli samit isə Azərbaycan dilində yoxdur. Onlar Azərbaycan dilində aşağdakı qaydada tələffüz olunur.

**კ - k*** (sərt tələffüz) **პ - p*** (sərt tələffüz) **ტ - t*** (sərt tələffüz)
**ყ - ğ*** (sərt tələffüz) **ც - ts *** (sərt tələffüz ) **წ ≈ ts** (təxmini tələffüz)
**ჭ ≈ tç** (təxmini tələffüz) **ძ ≈ dz** (təxmini tələffüz)

Azərbaycan dilindən fərqli olaraq, gürcü dilinin orfoqrafiyasında böyük və kiçik hərflər yoxdur. Çap və yazı hərfləri şəkil etibarı ilə eynidir. Oxunduğu kimi də yazılır.

* * *

## წარმატების პირველი ნაბიჯი (Tsarmatebis pirveli nabici)
## Uğura gedən ilk addım

**სანამ წინ წავალთ ცხოვრებაში, უნდა ვიცოდეთ ვისკენ მივდივართ.** (Sanam tsin tsavalt tsxovrebaşi, unda vitsodet visken mivdivart.) **– Həyatda irəliləmədən öncə hara getdiyimizi bilməliyik.**

**ყველაზე რთული, მაგრამ ყველაზე აუცილებელი გზაა საკუთარი თავის შეცნობა.** (Ğvelaze rtuli, maqram ğvelaze autsilebeli qzaa sakutari tavis şetsnoba.) **– Ən çətin, amma ən vacib yol insanın özünü tanıma yoludur.**

**საკუთარი თავის შეცნობა არ არის მარტივი გზა** (Sakutari tavis şetsnoba ar aris martivi qza.) **– Özünü tanımaq asan bir yol deyil.**

**ეს ნიშნავს საკუთარ შიშებთან, შეცდომებთან და ზღვრებთან შეხვედრას.** (Es nişnavs sakutar şişebtan, şecdomebtan da zğvrebtan şexvedras.) **– Bu, öz qorxularımız, səhvlərimiz və sərhədlərimizlə qarşılaşmaq deməkdir.**

**მაგრამ ვინც იცნობს საკუთარ თავს შეუძლია სამყაროს შეცვლა.** (Maqram vints itsnobs sakutar tavs şeudzlia samğaros şetsvla.) **– Lakin özünü tanıyan insan dünyanı da dəyişə bilər.**

**მისი სიტყვები უფრო ძლიერად ჟღერს, მისი მიზნები მკაფიოა.** (Misi sitğvebi upro dzlierad jğers, misi miznebi mkapioa.) **– Onun sözləri daha güclü səslənir, məqsədləri isə aydındır.**

**საკუთარი თავის შეცნობა რას ნიშნავს:** (Sakutari tavis şetsnoba ras nişnavs:) **– Özünü tanımaq nə deməkdir:**

**საკუთარი ემოციების მიღება და მართვა;** (Sakutari emotsiebis miğeba da martva;) **– Hisslərini qəbul etmək və idarə etmək;**

**თავის ძლიერი და სუსტი მხარეების დანახვა;** (Tavis dzlieri da susti mxareebis danaxva;) **– Güclü və zəif tərəflərini tanımaq;**

**საკუთარ არჩევანზე პასუხისმგებლობის აღება.** (Sakutar arçevanze pasuxismqeblobis ağeba.) **– Seçimlərinə görə məsuliyyət daşımaq deməkdir.**

**ამ პროცესს დრო და სიმამაცე სჭირდება.** (Am process dro da simamatse stçirdeba.) **– Bu proses üçün zaman və cəsarət lazımdır.**

**თუმცა სწორედ ეს არის გზის დასაწყისი** (Tumtsa stsored es aris qzis dasatsğisi) **– Lakin məhz bu, başlanğıcdır .**

**და ის, ვინც თავის თავს იპოვის, საკუთარ გზასაც იპოვის.** (Da is, vints tavis tavs ipovis, sakutar qzasats ipovis.) **– Və o, özünü tapan insan, öz yolunu da tapacaq.**

Ədəbiyyat

(Əvvəli ötən sayımızda)

# Xəyanət

(Hekayə)

İnsafən tibbi yardımı təmənnasız yerinə yetirirdi. Sara xanım mənə qardaş, mən isə ona yengə deyirdim. Ərinin ölümündən illər keçsə də o, həmişə qəmli-kədərli görünürdü. İzzətin vaxtsız və faciəli ölümü ilə əlaqədar içində sarsıntı var idi. Son illər onu bir dəfə də olsun deyib-gülən görmürdüm. Ancaq axır zamanlar üzdə büruzə verməsəm də, daxilimdə mənim Saraya qarşı münasibətim tamam dəyişmişdi, köhnə dostluğu, yaxşılıqları yavaş-yavaş yaddan çıxarırdım. O, mənim kor olan gözlərimdə heç yerdə görmədiyim, təsadüfən rast gəldiyim yad bir gözəl qadın kimi canlanırdı. Son günlər ona gizlicə, həsrətlə baxırdım, istəyirdim daima onunla ünsiyyətdə olum, ancaq o, məndə ona qarşı heç bir dəyişiklik hiss etmirdi. Bir - iki dəfə „lənət şeytana" deyib fikrimdən vaz keçib özümü ələ almağa çalışsam da, bacarmadım. Dəli kimi olub indiyədək qazandığım etibarı, inamı tamamilə unutmuşdum.

Nəhayət, kirli ürək sözlərimi ona çatdırmaq üçün bir gün axşamdan xeyli keçmiş saat 1-2 radələri olardı, özümdə cürət toplayıb Saragilə getdim. Əllərim əsirdi, qapını döyüb özümü təqdim etdim. O, həmin an səsimi tanıdığına görə səsimə səs verdi. Düşündü ki, yəqin uşağın yenə vəziyyəti pisləşib, hərarəti var. „Dərmanları götürüb gəlirəm" dedi. İki dəqiqə keçməmiş qapını açdı „yenə uşağa bir şeymi olub?" gedək dedi. Təcili pilləkənlərlə aşağı enmək istəyəndə özümü saxlaya bilməyib Saranın qolundan tutdum. „Bu gün uşaq yox, mən xəstələnmişəm, məni müalicə etməlisən."-dedim. Sara xanım mənim müraciətimi həqiqi mənada başa düşdü. „Onda içəri keç otur, qan təzyiqini və hərarətini yoxlayım."- dedi. Həmin an özümdə deyildim, onun ətli qollarından tutub özümə tərəf çəkdim. İsti nəfəsini, ətirli qoxusunu duyub dilim topuq çala-çala pıçıltılarla „Sara, səni dəlicəsinə sevirəm."-dedim. Sara duruxub təəccüblə üzümə baxdı. Haçandan - haçana hiss etdi ki, mən bu gecə onlara başqa niyyətlə gəlmişəm. Var gücü ilə dartıb qollarını əllərimdən çıxardıb mənalı-mənalı gözlərimin içinə baxdı „Şərəfsiz, əclaf"- dedi, — heç utanırsanmı? Kəfəni saralmamış bir yaxın dostunun arvadına göz dikib ona xəyanət etmək istəyirsən, sənin dostluğun bu qədərdimi? - deyib üzümə möhkəm bir şillə vurdu. Qışqırığına qayınanası və uşaqları oyandılar. Səs-küy düşəndə həyətdən uzaqlaşdım, hara getdiyimi bilmirdim. Arxama baxmadan səhərə qədər dərə-təpələrlə durmadan şimala doğru yol gedirdim. Yolboyu elə bil ayılmışdım, tutduğum işə görə peşman olsam da, artıq hər şey gec idi. Günlərlə ac-susuz qalaraq yol gedirdim, taqətsiz vaxtlarımda çöllərdən yemlik toplayıb onunla aclığımın qarşısını alırdım. Bir neçə gündən sonra çöldə heyvan otaran bir çobana rast gəldim, ona ac olduğumu bildirib yemək istədim. Çoban çiynində gəzdirdiyi torbadan çörək və qovrulmuş ət verdi. Bir az yedim, artanını da özümə verdi. Çoban haradan gəlib, haraya getdiyimi öyrənən zaman ona dedim ki, ruhi xəstə olan bir qardaşım çöllərə düşüb, aylardı onu axtarıram.

O da yadımdadır ki, çobandan aralanıb xeyli getmişdim ki, güclü yağışa düşdüm. Yaxınlıqda qəbiristanlıq var idi, orada bir künbəzin içində 3 gün gecələdim.

Vücudumda taqətsizlik yaranmışdı, bir müddət gizli bir yerdə dincəlib sonra yoluma yenə davam etmək istəyirdim, ancaq mən deyən kimi olmadı, əksinə bir mal-qara saxlanılan böyük bir tövlədə iki ilə yaxın qalıb çobanlara kömək etdim. Onlar mənimlə maraqlansalar da, həqiqəti demədim. Qadınımla yola getmədiyimə görə başımı götürüb evdən çıxdığımı bildirdim. Çobanlarla xudahafizləşib xeyli yol getdikdən sonra çay qırağında düzəldilmiş böyük bir çınqıl üyüdülən karxanaya rast gəldim. Orada bir müddət gün keçirdim. Gündüzlər gizlənib, gecələr gözətçinin yanında yatırdım. Ən sonda buraya-zirvəsi görünməyən bu dağa gəlib çıxdım.

Mənə elə gəlir ki, etdiyim hərəkət bütün el-obaya yayılıb, əslinə baxsaq mən insanlardan qorxmuram, ancaq onların qılıncdan iti, tənəli, qaxınc gətirən sözlərindən xəcalət çəkib, cavabını tapa bilməyəcəyim suallarından qorxurdum."

Məsim kişi Qurbanın gecələr yatdığı yerə baxıb başını buladı. „Ay oğul, qazıb düzəltdiyin o ensiz dar yer gecələr sənə narahatlıq vermirmi, bəlkə sənin üçün münasib bir yer düzəldək?-dedi.

Yox dayı, düzdür, ilk günlər yata bilmirdim, sonralar çətinliyə öyrəndim. Son günlər yatan zaman tez-tez dostum İzzət yuxuma gəlir, sorğu-suala tutub, məni öldürən tənəli sözlər söyləyir. Dünən gecə yenə yuxuma gəlmişdi, heç nə demədən diqqətlə gözlərimin içinə baxırdı, mən də utandığımdan boynumu büküb başımı aşağı salmışdım. - Sonra görürəm ki, İzzət hərbi xidmətdən yenicə qayıdıb, bizi görməyinə çox sevinirdi. Hərbi xidmətdən 2 çamadanla qayıtmışdı. „Çamadandakıların bir qismini sənə gətirmişəm, qardaşım."-dedi. Həmin gün o mənə qış paltarları hədiyyə etdi. Yuxuda onu da gördüm ki, anam uzun müddət xəstəxanada ağır vəziyyətdə yatır, sağalmağı da mümkün olmadı, maddi cəhətdən də çətinlik çəkirdim, dərmanlar, həkim xərci məni əldən salmışdı. Anamın dəfnindən bir gün əvvəl İzzət məni otağın birinə çağırıb təmənnasız pul verdi „utanma, al götür, ananın dəfn mərasimini lazımi qaydada rahat yola sal", - dedi. Doğrudan da olduğu kimi yadımdadı o, hərbi xidmətdən gələndə mənə paltar, anamın dəfnindən əvvəl də təmənnasız pul vermişdi. İzzətin çox yaxşılıqları olub mənə, sadalamaqla qurtarmaq olmaz.

Qurban söhbətinə ara verdi, gözləri yaşarmışdı, artıq danışmaq istəmədiyini bildirdi.

Məsim kişi ona 1-2 qurtum su içirtdi, ancaq yemək istəmədi. Aradan xeyli vaxt keçmişdi, Məsim kişi hiss etdi ki, Qurban öz-özünə danışır:„- Yuxuda İzzətdən gözlərimi yayındıra bilmirdim, düz gözlərimin içinə baxıb susurdu. Ancaq bu dəfə sərt danışırdı. „Qurban, yadındadırmı, mən avtomobil qəzasına düşəndə vəziyyətim çox ağır idi, sağalmağa ümid qalmamışdı, həyatımın son dəqiqələrini yaşayırdım. Yanıma gəlib hönkür-hönkür ağlayırdın.

Həmin vaxt Allah mənə fürsət verdi, vəsiyyət edib ailəmi sənə əmanət etdim. „Artıq ölürəm, anamı, həyat yoldaşımı, uşaqlarımı göz bəbəyin kimi qoru, "- dedi. Axı, biz bir-birimizə qardaş demişdik, kasıb vaxtlarımızda bir çörəyi iki yerə bölüb ailəmizi dolandırırdıq, uşaqlarımız bir yerdə böyüyürdü. Ancaq cəmi 2 il keçməmiş mənim ailəmə başqası yox, pis niyyətlə sən müdaxilə edib, uşaqlarımın göz yaşlarının qurumasına imkan verməyib, körpələrimin anasına eşq elan etdin. Mənim ruhumu, ailəmin param-parça olmuş qəlbini zəhərlədin. Dostluğu nə tez unutdun? Xəyanətinə görə ruhum bir yerdə qərar tuta bilmir, daima çarpınır..."

Axşam düşürdü, ünvanını bilmədiyi Qurban özünə gəlmişdi. Məsim kişi onu evinə gətirib müalicə etdirmək sonra da yiyəsinə vermək üçün çox dilə tutdu. „-Məni heç yana aparma, bacarırsansa, öz "sığınacağımda" yerimə rahatla, yatmaq istəyirəm."-dedi. Məsim kişi əlacsız qalıb onun dediyinə əməl edib, üstünü də qurumuş budaqlarla bərk-bərk örtdü. Kişi evə bikef və çox gec qayıtsa da, ürəyi Qurbanın yanında qalmışdı.

Həmin gecə axşamdan başlayan şıdırğı yağış fasilələrlə 2 gün davam etdi. Kəndin bütün ara yolları su altında qalıb, gediş-gəliş kəsilmişdi. Məsim kişinin səbri tükənmişdi, Keçəldağda qoyub gəldiyi xəstədən çox nigaran idi. Təqribən 4 gündən sonra yollar açılar-açılmaz Məsim kişi səhər tezdən atı minib Keçəldağa tərəf yollandı, yollar palçıqlı idi, at büdrəyə-büdrəyə zorla dağa dırmanırdı. Məsim kişi həmin çətirli palıd ağacını tapıb atdan endi. Mənzərəni görəndə kişi gözlərinə inana bilmədi. Düzəldilmiş sığınacaqdan əsər-əlamət yox idi. Qurbanın canlı bədənindən yalnız cırıq paltar, ayaqqabı, bir də xırda sümüklər qalmışdı. Məsim kişi bu işdən çox qorxub bir daha ətrafa göz gəzdirib, tüfəngi hazır vəziyyətə gətirdi, yan-yörəsində qurd-quşdan əsər-əlamət yox idi. Ünvanını bilmədiyi bu oğlanın belə faciəli ölümü onu göz yaşlarına boğdu. Xeyli fikrə getdi, ürəyində „qoy hamı bilsin ki, insan tutduğu pis əməllərin nə vaxtsa cəzasını alacaq. Qurbanı illərin dostuna etdiyi xəyanəti, paklığı və müqəddəsliyi sevən qara torpaq da sonrakı peşmançılığa baxmayaraq qəbul etməyib onu məzarsız qoydu, "- dedi.

Qurbanın tutduğu işininin təfərrüatını dərindən bilməyən ailə və bütün yaxınları hər gördüklərindən itkin düşən Qurbanı soruşsalar da, verilən sallar cavabsız qalırdı. Ancaq nigaran ailənin xəbəri yox idi ki, ünvanı bilinməyən Qurban çox-çox uzaqlarda xəyanətin qurbanı olmuşdu.



**Sərxan Səfərov,**
**Qardabani, Qaracalar kəndi.**

---

### QAYIT, CAVANLIĞIM

Nə müddətdir səndən ayrı düşmüşəm,
Qayıt, cavanlığım, qayıt, bir də gəl.
Bəlkə də inciyib-küsmüsən məndən,
Qayıt, cavanlığım, qayıt, bir də gəl.

Heç zaman xətrinə dəymədim sənin,
Qəddi-qamətini əymədim sənin,
Atana-anana söymədim sənin,
Qayıt, cavanlığım, qayıt, bir də gəl.

Getdin, cavanlığım, getdin əlimdən,
Nə dedim, incidin mənim dilimdən?
Neçə cür arzular keçir könlümdən,
Qayıt, cavanlığım, qayıt, bir də gəl.

Elə bilirdim ki, cavan qalacam,
Ömürlük səninlə yoldaş olacam,
Həyatda ən gözəl ömür sürəcəm,
Qayıt, cavanlığım, qayıt, bir də gəl.

Qocalıq qapını gəlib alıbdı,
Şən sifətim saralıbdı-solubdu,
Ağrılar mənimlə həmdəm olubdu,
Qayıt, cavanlığım, qayıt, bir də gəl.

Səndən ötrü qəlbim yaman titrəyir,
Səni görmək üçün gözüm səyriyir,
Gəl, gör bir qocalıq mənə neyləyir,
Qayıt, cavanlığım, qayıt, bir də gəl.

Vəfasız dünyada çox işlər olar,
Dostlar öz dostuna vəfalı qalar,
Gecə-gündüz Tapdıq səni arzular,
Qayıt, cavanlığım, qayıt, bir də gəl.

### GÜLƏRSƏN

Mərd insan ol, kişiliyi itirmə,
Qartal kimi ən ucada durarsan.
Çoxu üçün əziz xələf olub sən,
Ya dostları, ya qardaşı olarsan.

Mehriban ol oba ilə, el ilə,
Hal-əhval tut şirin-şirin dil ilə,
Ad qazanmaq mümkün deyil bir ilə,
Bu misalı yəqin özün bilirsən.

Tapdıq, uyub sən aldanma şöhrətə,
Məəttəl qaldım neçə sirli hikmətə,
Layiq olsan el içində hörmətə,
Ömrün boyu sevinərsən, gülərsən.

### A LEYLİ

Getdi uşaqlığım, gəldi cavanlıq,
Sevgi atəşinə düşdüm, a Leyli!
Ətirli çiçəyi mən dərmək üçün
Sizin bağçanıza uçdum, a Leyli!

İlk məhəbbətim daşa toxundu,
İçimdə çox qəmli mahnı oxundu,
Qəlbimiz bir-birnə daha yaxındı,
Sənə ürəyimi açdım, a Leyli!

Süzgün baxışlarla baxan da sənsən,
Canımı odlara yaxan da sənsən,
Qəlbimdə şimşəktək çaxan da sənsən,
Ağlımı itirdim, çaşdım, a Leyli!

Fikir məni əzir, gəzə bilmirəm,
Mən bu məhəbbətə dözə bilmirəm,
Necə, nə cür, gəlim sizə bilmirəm,
Sevgi şərbətini içdim, a Leyli!

Qızların sultanı, şahı da sənsən,
Tapdığın sevgisi, ahı da sənsən,
Tanrının verdiyi payı da sənsən,
Mən qeyri qızlardan qaçdım, a Leyli!

### CANDAR KƏNDİ - ELİM MƏNİM

Kim soruşsa, haralısan?
Candar kəndi - elim mənim.
Bu obada açılıbdı
Körpəlikdən dilim mənim.

Gözəlliyi göz oxşayır,
Bəzəkli bir gəlin kimi.
Heç bir elə vurulmadım,
Yaşadığım elim kimi.

Candar gölü, sıra dağlar,
Bəzək verir kəndimizə.
Hörmət, izzət göstəririk
Hər kim qonaq gəlsə bizə.

Qızlarında namus-ismət,
Oğlanların qeyrəti var.
Uzaqlarda ad qazanan
Şir ürəkli Zabiti var.

Allah bizə bəxş eləyib
Seyid Abbas ocağını.
Dara düşən kim gələrsə,
Açar ona qucağını.

Mən danışıb söylədiyim
Seyid Abbas ocağıdı.
İnam ilə gələnlərə
Sanki ana qucağıdı.

Seyid Yəhya kəndimizin
Ağsaqqalı, başbiləni.
Cəddi ilə o sağaldar
İnanın ki, lap öləni.

Tapdıq deyər, mən sevirəm
Belə gözəl el-obanı.
Allah-təala uzaq etsin
Bizdən tamam dərd-bəlanı.

### ARVAD

*(Mərhum həyat yoldaşıma)*

Mən səni sevirdim dünyalar qədər,
Sən mənim canımsan, qanımsan, arvad!
Gözümdə ucadan uca dururdun,
Hurisən, mələksən, xanımsan, arvad!

Günəştək ömrümə işıq çilərdin,
Ağlasam ağlardın, gülsəm gülərdin,
Sən mənim xasiyyətimi yaxşı bilərdin,
Günümsən, ayımsan, anımsan, arvad!

Elə hey yanında olmaq istərdim,
Səni hər dəqiqə görmək istərdim,
Tapdığam, bilginən, demək istərdim,
Şahımsan, başımda tacımsan, arvad!

**Tapdıq YUSİFLİ**
**(Qardabani,**
**Candar kəndi)**



## TARİXDƏ NÖVBƏTİ HƏFTƏ




**27 iyun**

• 1615 — Portuqaliya limanlarından birinə digər xarici mallarla yanaşı, Çin mənşəli və sonradan çay adlanan xırda qara toz daşıyan gəmi yanaşıb. Beləliklə, çay ilk dəfə Avropaya idxal edilib.

•1709 — Bir tərəfdən o zamankı Avropanın ən güclü dövlətlərindən biri olan İsveç krallığı, Rusiya, Danimarka, Saksoniya və Polşa-Litva İttifaqından ibarət koalisiya arasında gedən Şimal müharibəsinin (1700 – 1721-ci illər) ən əsas döyüşlərindən biri olan Poltava döyüşü baş verib. Nəticədə, rus imperatoru I Pyotr bu zamana qədər məğlubedilməz qəbul edilən İsveç kralı XII Karlı məğlub edib.

**28 iyun**

•1651 — Boqdan Xmelnitskinin və Krım xanı III İslam – Qirayın rəhbərlik etdikləri birləşmiş Ukrayna kazakları və tatar ordusu və kral II Yan Kazimirin rəhbərlik etdiyi Polşa-Litva ordusu arasında Beresteçko döyüşü baş verib. 13 gün davam edən döyüş Polşa-Litva ordusunun qələbəsi ilə nəticələnib.

•1712 — Maariflənmə dövrünün mühüm filosoflarından biri olan fransız Jan Jak Russo İsveçrənin Cenevrə şəhərində anadan olub.

•1919 — Fransanın paytaxtı Parisin yaxınlığında yerləşən Versalda Birinci Dünya Müharibəsinin nəticələrini bəlli edən Versal Müqaviləsi imzalanıb. Müqaviləyə görə, müharibədə məğlub olan Almaniya və müttəfiqləri ərazilərinin və müstəmləkələrinin böyük hissəsini itirib, yeni dövlətlər yaranıb.

**29 iyun**

• 1877 — İtaliyanın Alessandriya şəhərində italyan ixtiraçı Enriko Forlanini buxarla işləyən helikopter modeli ilə havaya qalxıb.

•1880 — Fransa Sakit Okeanda yerləşən və himayəsində olan Taiti krallığını (Polineziya adaları) ilhaq edərək müstəmləkəsinə çevirib.

•1881 — Sudanlı vaiz Məhəmməd Əhməd özünü "Mehdi", yəni "xilaskar" elan edərək, İngiltərə və Misir idarəçiliyinə qarşı mübarizəyə başlayıb. Əvvəl bir sıra uğura nail olsa da, nəticədə 1899-cu ildə qurduğu dövlət İngiltərə və Misir tərəfindən ilhaq edilib.

•1936 — **Revaz Qabriadze, gürcü yazıçı, rejissor və rəssam, anadan olub.**

•1976 — **Seyşel adaları Böyük Britaniyadan müstəqillik əldə edib.**

**30 iyun**

•1810 — Napoleon Bonapart 1795-ci ildən fransız işğalı altındakı Hollandiyanı ilhaq edərək, Fransanın tərkib hissəsinə çevirib.

•1894 — Koreya kralı Kocon Koreya imperiyasının Çindən müstəqilliyini elan edib. Lakin Koreya bir-biri ilə mübarizə aparan üç böyük imperiyanın - Çin, Yaponiya və Rusiya – təsiri altında qalıb və nəticədə, 1910-cu ildə Yaponiya tərəfindən ilhaq edilib.

•2018-ci ildə Parlamentlərarası İttifaqın təşəbbüsü ilə BMT Baş Assambleyası tərəfindən 30 iyun Beynəlxalq Parlamentarizm Günü elan edilib.

**1 iyul**

•1890 — Böyük Britaniya və kayzer Almaniyası Afrikada təsir dairələrinin bölüşdürülməsi barədə razılaşıblar.

•1960 — Somali Böyük Britaniyadan və İtaliyadan müstəqillik əldə edib.

•Çin Kommunist Partiyasının yaranma gününü qeyd edir. Sözügedən partiya 1921-ci ildə "Komintern"in vasitəçiliyi ilə yaranıb.

**2 iyul**

•1853 — Rusiya imperiyası Osmanlı imperiyasının təsiri altındakı Moldaviya knyazlığını işğal edərək, Krım müharibəsinin başlamasına səbəb olub. Osmanlının tərəfində müharibəyə İngiltərə və Fransanın qoşulması ilə müharibə 1856-cı ildə Rusiyanın ağır məğlubiyyəti ilə nəticələnib.

•Beynəlxalq İdman Mətbuatı Assosiasiyasının təşəbbüsü ilə 1995-ci ildən etibarən hər il iyulun 2-də dünyanın bir çox ölkələrində Beynəlxalq İdman Jurnalistləri Günü qeyd edilir.

**3 iyul**

•1976 — Bonnda Qərbi Almaniyanın "Kraftverkunion" ("Siemens" şirkətinin filialı) şirkəti tərəfindən İranda iki nüvə elektrik stansiyasının İrana təhvil verilməsi haqqında müqavilə imzalanıb.

•2000 — **Kamal Sunal, türk aktyor, vəfat edib.**

•Belarusda ölkənin 1944-cü ildə sovet ordusu tərəfindən nasist işğalından azad edilməsi münasibətilə Müstəqillik Günü qeyd edilir.

# HƏFTƏNİN SEÇİLMİŞLƏRİ

## REVAZ QABRİADZE



***XX əsrin məşhur gürcü yazıçısı, ssenaristi və rejissoru Revaz Qabriadze 29 iyun 1936-cı ildə Kutaisidə anadan olub.*** 1964-cü ildə Tbilisi Dövlət Universitetinin filologiya fakültəsinin jurnalistika şöbəsini bitirib. 1967-ci ildə Moskvada ali rejissor və ssenaristlər kurslarını keçib.

1981-ci ildə Rezo Qabriadze Tbilisidə Şavteli küçəsi 13 ünvanında yerləşən Tbilisi Kukla Teatrının qurucusu olub. Teatrın ilk tamaşası "Alfred və Violetta" olub. Rezo Qabriadze tamaşanın müəllifi, rejissoru, rəssamı və musiqi tərtibatçısı olub. Qeyd edək ki, sözügedən teatr bu gün də müxtəlif ölkələrdə qastrol səfərləri təşkil edir.

Revaz Qabriadze 35-dən çox filmin ssenarisinin müəllifidir: "Qeyri-adi sərgi" (1968-ci il), "Serenada" (1968-ci il), "Dərd eləmə" (1969-cu il), "Küp" (1970-ci il), "Feola" (1970-ci il), "Qəribələr" (1973-cü il), "Mimino" (1977-ci il), "Pasport" (1990-cı il) və s.

Revaz Qabriadze aşağıdakı filmlərin rejissorudur: "Qafqaz romansı" (1975-ci il), "Zirvələrin fatehləri" (1977-ci il), "Limon tortu" (1977-ci il).

1994-1995-ci illərdə Rezo Qabriadze Moskvada Sergey Obraztsov adına Akademik Mərkəzi Kukla Teatrının bədii rəhbəri olub.

Rəssam kimi Rezo Qabriadze bir çox sərgilərdə iştirak edib: Münhendə (Almaniya), Rene və Dijonda (Fransa), İsveçrədə (Lozanna) , Rusiyada (Moskva və Sankt-Peterburq) və b.

2010-cu ildə Tbilisi Kukla Teatrının yanında Rezo Qabriadzenin layihəsi və bilavasitə iştirakı ilə unikal saat qülləsi tikilib.

2012-ci ildə Moskvada Puşkin adına Milli İncəsənət Muzeyində Rezo Qabriadzenin əsərlərindən ibarət böyük fərdi sərgi açılıb. Sərgidə rəssamın 182 rəsm, qrafika, keramika, heykəltəraşlıq və kukla əsərləri nümayiş etdirilib. Revaz Qabriadzenin əsərləri Avropa və ABŞ-də muzey və şəxsi kolleksiyalarda saxlanılır. Rəsmlərdən başqa Rezo Qabriadzenin müəllifi olduğu heykəllər Odessa və Sankt-Peterburqda yerləşir.

Rezo Qabriadze Gürcüstanda, Fransada və Rusiyada nəşr olunmuş 50-dən çox kitabın illüstrasiya müəllifidir.

Revaz Qabriadze 6 iyun 2021-ci ildə vəfat edib. Tbilisinin Mtatsminda Panteonunda dəfn edilib.

## KAMAL SUNAL



***Xalq arasında "Şaban" kimi tanınan məşhur türk aktyor Kamal Sunal 11 noyabr 1944-cü ildə İstanbulda anadan olub.*** İbtidai təhsilini "Memar Sinan adına İbtidai Məktəb"də alıb. Sonra Türkiyənin qədim litseylərindən biri olan, 1872-ci ildə qurulan "Vəfa litsey"ində təhsilini davam etdirib. Kamal Sunalın litsey təhsili müvəffəq olmaması səbəbilə 11 il ərzində davam edib. Türkiyənin jurnallarından biri olan "Səs Dərgisi"nə verdiyi müsahibədə aktyor bu haqda deyib: "Bu mənim tənbəlliyim və ya axmaqlığımla bağlı deyildi. 15-20 nəfərlik qrup idik. Bir yerdə keçirdik, bir yerdə qalırdıq. Bu, razılaşan bir qrup idi..."

Kamal Sunal aktyorluq karyerasına məhz litseydə başlayıb. Həmin müddətdə oynadığı tamaşa ilə "Akşam qəzeti Litseylərarası Teatr Müsabiqəsi"ndə "Ən Yaxşı Personaj İfaçısı" seçilib. Bu müddətdə Kamal Sunalın istedadını kəşf edən şəxs onun litseydəki fəlsəfə və teatr müəllimi Belkis Balkır olub. Kamal Sunal "Mərmərə Universiteti"nin Ünsiyyət fakültəsinə daxil olub, təhsilini başa vurmayıb.

Kamal Sunal kino karyerasına 1972-ci ildən başlayıb. Oynadığı komediya janrına aid filmlər sahəsində Türkiyənin ən məşhur komediya aktyoruna çevrilib. Aktyor karyerasının zirvəsinə 1975 – 1979-cu illərdə çatıb.

Kamal Sunalın oynadığı məşhur filmlər arasında "Dəli, dəli küpəli", "Doktor civanım", "İnək Şaban", "Gülən adam", "Qürbətçi Şaban" və "Hababam sinifi" kimi komediya janrına aid filmləri qeyd etmək olar. Filmlərdə canlandırdığı əsas personajın adı səbəbilə xalq arasında "Şaban" ləqəbini qazanıb.

Kamal Sunalın qazandığı mükafatlar: Antalya Qızıl Portağal Festivalında Türk Komediya Filmlərində Ən Yaxşı Aktyor Mükafatı (1977); Antalya Qızıl Portağal Festivalının münsiflər heyətindən bütün aktyorluq karyerasına görə fəxri mükafat (1998).

Kamal Sunal 3 iyul 2000-ci ildə "Balalayka" filminin çəkilişləri üçün Trabzona gedən təyyarədə infarkt keçirərək 55 yaşında vəfat edib.

## SEYŞEL ADALARI



Şeyşel adaları Afrika qitəsinin şərq sahillərində, Hind okeanı hövzəsində yerləşən, 115 adadan ibarət dövlətdir. Ölkə ərazisi 459 $km^2$-dir. Əhalisinin sayı 97617 nəfərdir. Ölkənin paytaxtı və ən böyük şəhəri ölkənin ən iri adası Mahedə yerləşən Viktoriyadır. Rəsmi dilləri inglis, fransız və Mavritaniya-Seyşel ləhcəsinə aid Seyşel kreol dilidir. Pul vahidi Seyşel rupisidir.

**Tarixi:** Seyşel adaları uzun müddət insansız qalıb. Siluet adasında 9-10-cu əsrlərə aid ərəb dənizçilərinin məzarları və Friqit adasında (Friqat) qaya yazıları qalıb. Adalar avropalılar tərəfindən 1502-ci ildə Vasko da Qammanın Hindistana ikinci səyahəti zamanı kəşf edilib. Adalar ilk dəfə 1609-cu ilin yanvarında kapitan Aleksandr Şarpeyin Britaniya Şərqi Hindistan Şirkəti ekspedisiyası tərəfindən təsvir edilib. 1742-ci ildə Fransanın İle-de-Frans (Mavriki) adasının qubernatoru Bertran Fransua Mahe de Labourdonnais adaları araşdırmaq üçün ekspedisiya göndərib. 1756-cı ildə adalar Fransanın müstəmləkəsi elan edilib. Fransız İnqilabı və Napoleon müharibələri zamanı adalar bir neçə dəfə ingilislər tərəfindən işğal edilib. Britaniyanın adalar üzərində hakimiyyəti 1814-cü ildə imzalanan Paris müqaviləsi ilə təmin edilib. İnglis idarəçiliyi 1976-cı ilə qədər davam edib. 28 iyun 1976-cı ildə Seyşel adaları Böyük Britaniyadan müstəqilliyini qazanıb.

**Coğrafiyası:** Geoloji baxımından, Seyşel adaları qranit və mərcan adalarına bölünür. Ümumi sahəsi təxminən 243,7 kv. km olan qranit qrupunun 42 adasına Mahe adaları (155 kv. km, bütün arxipelaqın ən yüksək nöqtəsi 905 m-dir), Praslin (45 kv. km), La Digue, Silhouette və s. daxildir. Arxipelaqda əksər yaşayış məntəqələri və əsas iqtisadi fəaliyyət bu adaların sahillərində cəmləşir. Qranit adalarının daxili hissəsində nadir xurma, pandanus və yabani ağac növlərinin üstünlük təşkil etdiyi meşələr qorunub saxlanılıb. Sahil ovalıqlarında təbii flora kokos palmaları və digər becərilən bitkilərlə əvəz edilib.

**İqtisadiyyatı:** Seyşel adaları iqtisadi cəhətdən ən inkişaf etmiş Afrika ölkəsidir. Seyşel adalarının iqtisadiyyatı turizm və balıqçılıq, həmçinin kokos və vanil emalı, kokos lifindən ip istehsalı, qayıq istehsalı, mebel və içki istehsalına əsaslanır. Seyşel adalarının ixracat üzrə iqtisadi tərəfdaşları BƏƏ, Fransa, Böyük Britaniya, İtaliya və İspaniyadır. Ölkə konservləşdirilmiş balıq, dondurulmuş balıq, neft məhsullarını ixrac edir. Ölkənin idxal tərəfdaşları BƏƏ, Fransa, Cənubi Afrika, Mavriki, İspaniya, Hindistan, Çin və Böyük Britaniyadır. Ölkə heyvanlar və qida məhsulları, neft məhsulları, nəqliyyat vasitələri və onların hissələrini idxal edir.

**Elm və təhsili:** Seyşel adalarında təhsil 6 yaşdan 15 yaşa qədər pulsuz və məcburidir. Seyşel adaları yeganə Afrika ölkəsidir ki, təhsil sistemi dünyada ilk 50-likdə yer alır və 43-cü yerdədir. Seyşel adaları 96,20 faiz ilə Saharadan cənubda yerləşən Afrikanın ən yüksək savadlılıq səviyyəsinə malik ölkəsidir.

**Dövlət quruluşu:** Seyşel adaları prezident respublikasıdır. Prezident 5 il müddətinə əhali tərəfindən seçilir. Ölkənin hazırki prezidenti Ovel Ramkalavandır. Milli Assambleya 35 deputatdan ibarət birpalatalı parlamentdir (25-i əhali tərəfindən seçilir, daha 10-u proporsional olaraq seçkilərdə ən azı 10 faiz səs toplayan partiyalardan təyin olunur).

**Mədəniyyəti:** Seyşel adalarının mədəniyyətinin formalaşmasına adaları idarə edən fransızlar və ingilislər, həmçinin Afrika, Hindistan və Madaqaskardan olan köçkünlər təsir göstərib. Ölkədən kənarda məşhurlaşan ilk Seyşel yazıçısı Antuan Abel olub.



GÜRCÜSTAN
Qəzet 1921-ci ildən nəşr olunur
გაზეთი 1921 წლიდან იბეჭდება
"საქართველო"
"S A K A R T V E L O"
Qəzetimiz milli sərvətimizdir
ჩვენი გაზეთი ეროვნული სიმდიდრეა



İDMAN İDMAN

## TBİLİSİDƏ 70 MİN NƏFƏRLİK YENİ STADİON TİKİLƏCƏK



***Tbilisidə 70.000 azarkeş üçün nəzərdə tutulmuş yeni stadionun inşası üçün ərazi müəyyən edilib.*** Stadion hava limanının yaxınlığında, Lugar Tədqiqat Mərkəzi ilə Qara Dəniz Universiteti arasında yerləşəcək.

Bu barədə Hökumət Administrasiyasının mətbuat xidməti məlumat yayıb.

Məlumata əsasən, stadionun inşası Gürcüstan hökumətinin qərarı ilə həyata keçiriləcək və meqalayihəni Bələdiyyə İnkişaf Fondu reallaşdıracaq. Qərarda digər dövlət qurumları tərəfindən görüləcək əlavə tədbirlər də müəyyən olunub.

Yeni stadion Gürcüstanda yüksək səviyyəli futbol və reqbi turnirlərinin keçirilməsinə imkan verəcək, həmçinin bu sahələrə əlavə investisiyaların cəlb edilməsinə şərait yaradacaq.

Bundan əlavə, stadion yalnız idman deyil, həm də mədəni tədbirlər üçün nəzərdə tutulacaq – burada yüksək səviyyəli konsert infrastrukturu və konvensiya mərkəzi fəaliyyət göstərəcək.

MÜSABİQƏ

## İCTİMAİ TELEVİZİYADA YAYIMLANAN "XALXURİ" MUSİQİ ŞOUSUNUN QALİBİ MƏLUM OLUB



***İctimai Televiziyada yayımlanan musiqi mega-şousu "Xalxuri"nin qalibi "Şemodzaxili" ansamblı seçilib.***

Qalibin adı bir neçə gün əvvəl efirə gedən final buraxılışında açıqlanıb.

Qalib ansambl Gürcüstanı təmsil etmək üçün Almaniyanın Rudolştadt şəhərində keçiriləcək nüfuzlu Rudolştadt Festivalına yollanacaq. Bu festival xalq musiqisi sahəsində dünyanın ən mötəbər tədbirlərindən biri sayılır.

"Xalxuri" — Gürcüstanın müxtəlif bölgələrindən olan xalq mahnı və rəqsləri ifaçıları, ansamblları, ailələr və fərdi iştirakçıların qatıldığı unikal milli layihədir. Layihə çərçivəsində ölkə üzrə 40 iştirakçı seçilmiş, onlardan 20-si yarımfinala, 10 nəfər isə final mərhələsinə vəsiqə qazanmışdı. Finalda isə qalib adı uğrunda gərgin mübarizə gedib.

Qeyd edək ki, Gürcüstan azərbaycanlılarından Aşıq Nargilə Mehtiyeva və gənc müğənni Şaban Məmmədov da yarışmada uğurla çıxış edərək yarımfinal mərhələsinədək irəliləyiblər.

## BEYNƏLXALQ MUĞAM MÜSABİQƏSİNİN QALİBLƏRİ MƏLUM OLUB



***Heydər Əliyev Fondu və Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə keçirilən "Muğam aləmi" 7-ci Beynəlxalq Musiqi Festivalı davam edir.***

Bu barədə Mədəniyyət Nazirliyinin mətbuat xidməti məlumat yayıb.

Festival çərçivəsində Azərbaycan Milli Konservatoriyasında beynəlxalq muğam ifaçıları müsabiqəsi təşkil olunub.

İki turdan ibarət müsabiqəyə Azərbaycan, Türkiyə, Tacikistan, Özbəkistan, Səudiyyə Ərəbistanı, Çin və digər ölkələrdən ümumilikdə 31 gənc muğam ifaçısı qatılıb.

Beynəlxalq münsiflər heyətinin qərarı ilə 14 iştirakçı finala vəsiqə qazanıb. Onların sırasından 6 ifaçı müsabiqənin qalibi olub:

Alibek Saparboyev və Dilnoza Akbarova (hər ikisi Özbəkistandan) 3-cü yerə, Nurəddin Tağıyev və Məhta Məhəmmədəlizadə Behnam (hər ikisi Azərbaycandan) 2-ci yerə, Farangiz Mahmudova isə (Özbəkistan) 1-ci yerə layiq görülüblər.

Azərbaycanı təmsil edən Məftun Səfərli ən yaxşı nəticə göstərərək müsabiqənin Qran - prisini qazanıb.

Azərbaycan Milli Konservatoriyasının "Ənənəyə sadiqliyə görə" xüsusi mükafatı isə Çin təmsilçisi, Sincan Uyğur bölgəsindən musiqi qrupuna təqdim edilib.

Özbəkistanın sədrlik etdiyi münsiflər heyətində Azərbaycan, Türkiyə və Almaniya təmsil olunub.

## DƏNİZİN QUCAĞINDAKI ŞƏHƏR



Foto E.Şahvələdindir.

MARAQLIDIR

## ƏTİRİN TARİXİ İLƏ BAĞLI ŞOK MƏLUMATLAR:
## QƏDİM SİVİLİZASİYALAR GÖZƏLLİK SİRRİNİ NECƏ QORUYURDU?

Bu gün gündəlik həyatımızın ayrılmaz hissəsinə çevrilən ətir məhsullarının tarixi min illər əvvələ - qədim sivilizasiyalara qədər gedib çıxır. Ətir ilk dəfə Misir, Hindistan və Mesopotamiya kimi ölkələrdə istifadə olunub.

Tarixi araşdırmalar göstərir ki, Misirdə ətir yalnız şəxsi qulluq vasitəsi deyil, həm də dini ayinlərin, kralların mumiyalanma mərasimlərinin və saray protokollarının ayrılmaz tərkib hissəsi olub.

Hindistanda isə təbii yağlar və otlardan hazırlanan ətirlər Ayurvedik təbabət və ruhani təmizlənmə rituallarında tətbiq olunurdu. Mesopotamiyada isə əttarlar xüsusi sənətkar kimi qəbul olunurdu - bəzi qadınlar bu sahədə ad çıxararaq ilk "əttar kimyaçılar" hesab ediliblər.

*"Parfüm"* sözü də latınca *"per fumum"* - yəni *"tüstü ilə"* ifadəsindən yaranıb ki, bu da qədim dövrdə ətirlərin əsasən tüstü formasında istifadəsini təsdiqləyir.

*"Ətir sadəcə qoxu deyil, mədəniyyətin özü və yaddaşın daşıyıcısıdır"*

Mövzu ilə bağlı tanınmış əttar və parfümeriya mütəxəssisi Türkan Alixanova bildirir ki, ətriyyat sənəti yalnız kosmetik məhsul hazırlamaq deyil, həm də mədəniyyətin, estetik dəyərlərin və tarixi yaddaşın bir növ daşıyıcısıdır:

*"Ətir, qədimdən bəri insanlar üçün emosional, dini və sosial dəyər daşıyıb. Misirdə məbədlərdə tüstülər tanrılarla ünsiyyət vasitəsi sayılırdı. Bu gün biz ətri bədənimizə vururuq, amma əslində bu, bizim hisslərimizi ifadə etdiyimiz bir sənət formasıdır. Hər bir ətir notu keçmişə bir yol, bir hekayədir".*

T. Alixanova əlavə edir ki, müasir dövrdə texnologiyanın inkişafı ilə parfümeriya sənətində çoxsaylı sintetik komponentlər istifadə olunsa da, təbiətdən gələn və tarixi köklərə bağlı olan qoxular hələ də insanların duyğularına daha dərindən təsir edir.

*"Gələcəkdə parfümeriya sahəsində texnoloji tərəqqi artsa belə, insanlar yenə də qədim qoxulara - misal üçün, ədviyyatlar, gül, ağac, qənd, müşk kimi notlara geri dönəcəklər. Çünki qoxu yaddaşı vizual yaddaşdan daha güclüdür"*, - deyə o, vurğulayıb.

Qeyd edək ki, bu gün ətriyyat sənayesi qlobal miqyasda milyardlarla dollarlıq iqtisadi bazara çevrilib. Lakin bu sahənin əsl kökləri, tarix və mədəniyyətin dərin qatlarında gizlənir.

TURİZM

## ACARISTANDA RƏSMİ OLARAQ YAY TURİZM MÖVSÜMÜ BAŞLAYIR



***Batumidə turizm mövsümü rəsmi olaraq açıldı*** - bu, Gürcüstanın bütün Qara dəniz sahillərində simvolik olaraq yay tətilinin başlanğıcını qeyd edəcək ənənəvi hadisədir.

Günün əsas hadisəsi Acarıstan Turizm Departamentinin təşkil etdiyi "Yay Festivalı" olub. Səhər saatlarında "Əlifba qülləsi"nin yaxınlığında əyləncə tədbirləri keçirilib və saat 18:00-da məşhur gürcü ifaçılarının iştirakı ilə bayram konserti başlayıb.

İstirahətçilərin təhlükəsizliyini təmin etmək üçün mövsümə 250-dən çox xilasedici və 40-dan çox gəmi cəlb olunub. Gürcüstanın daxili işlər naziri Qela Qeladzenin sözlərinə görə, xilasetmə xidmətləri Acarıstan, Quriya və Sameqrelo sahillərini tamamilə əhatə edəcək və müasir avadanlıqlarla təchiz ediləcək.

*"Bizim struktur bölmələrimiz regionda ictimai asayişin və təhlükəsizliyin ən yüksək səviyyədə təmin edilməsi üçün müxtəlif dövlət qurumlarının nümayəndələri ilə əməkdaşlıq şəraitində fəaliyyət göstərir".*

Acarıstan hökumətinin sədri Sulxan Tamazaşvili qeyd edib ki, bu il turistlər həm dənizkənarı kurortlarda, həm də dağlıq rayonlarda yeni yerlər, təkmilləşdirilmiş mehmanxana və əyləncə xidmətləri tapacaqlar.

*"Biz inanırıq ki, mövsüm uğurlu olacaq. Bu yay yeni turizm saytları, o cümlədən Çiruxidə yerləşən Avropanın ən uzun iki zolaqlı zipline də açılacaq"*, - deyə Tamazaşvili bildirib.

ELAN

"Gürcüstan" qəzetində "Soruşun-cavab verək" adlı hüquq məsləhəti güşəsi fəaliyyət göstərir. Bu guşədə hüququn bütün sahələrinə (İnzibati, Mülki, Cinayət və s.) aid məsələlərlə bağlı sizi maraqlandıran istənilən suala cavab ala bilərsiniz

Guşənin aparıcısı təcrübəli hüquqşünas, Gürcüstan Vəkillər Assosiasiyasının üzvü **Robinzon Levanoviç Papidzedir**.

**Əlaqə telefonu: +995 593 97 85 15;**

**Ünvan:** Tbilisi şəhəri, Tsereteli prospekti, 142, birinci mərtəbə.

**Qəzetin bank hesabı**
გაზეთის საბანკო ანგარიში
შპს გაზეთ „გურჯისტანი" ს/კ 203863792
ანგ. № GE03LB0111185703773000
სს ლიბერთი ბანკი SWİFT: LBRTGE22

Baş redaktor: Xaləddin YOLÇUYEV

Redaktor müavini: Binnət MƏMMƏDOV

Redaksiyanın ünvanı: Tbilisi şəh. Tsereteli pr. 142, I mərtəbə. E-mail: Gurcustan_1921@mail.ru İNDEKS 66444 Əlaqə telefonu: +995 32 222 04 76

Qəzet "Kolori" nəşriyyatında çap olunur. Redaksiyaya gələn əlyazmalar geri qaytarılmır və onlara rəy verilmir. Müəllifin mövqeyi ilə redaksiyanın mövqeyi müxtəlif ola bilər.